# ƏLİYEVA ƏDİLƏ





**”Kim ki, elm öyrənib tətbiq etmir, yeri əkib becərən, amma məhsulundan istifadə etməyən adama bənzəyir”**

***(Nəvai)***

Son illərdə respublikamızda təhsilin səviyyəsi yüksəlməkdədir. Belə ki, orta məktəblərdə təlim-tərbiyə, məktəbdə təhsilin səviyyəsində rolu böyükdür. Ölkəmizdə müasir tipli orta məktəblərі tikilir, lazımi avadanlıqla təchiz olunur. Təcrübəli, peşakar müəllim kollektivi bilikli və savadlı kadrların yetişməsi üçün əllərindən gələni edirlər. Elə bu səbəbdən də orta məktəb şagirdləri müxtəlif ali məktəblərə qəbulda yüksək göstəricilər əldə edirlər. Hətta xaricə, müxtəlif avropa ölkələrinə, Amerika kimi inkişaf etmiş ölkələrə yollanıb müxtəlif ixtisaslar üzərində ali təhsil alırlar. Bu həm onların özü üçün, həm də ölkəsi üçün bir avantajdır. Onlar həm də yeni yetişən nəsil üçün bir trmaplin, bir nümunədir.

Əliyeva Ədilə Xoşbəxt qızı 2008-ci il 19 avqust tarixində Bakı şəhərində anadan olub. İlk dəfə 2013- cür ildə məktəbə qədəm qoyan bu savadlı bala hal- hazırda Bakı şəhəri 35 nömrəli orta məktəbin 6b sinif şagirdidir. Ən çox sevdiyi dərslərin fiziki tərbiyə və ədəbiyyat oluğunu da xüsusi ilə vurğuladı. Ədilənin bir çox uğuru var. Şeir müsabiqəsində məktəblər arasında1-ci yer üzrə qalib olaraq Xəzər rayon gənclər məktəbi tərəfindən diploma layiq görülmüşdür. İncəsənətə marağı böyük olan Ədilə gələcəkdə xanəndə olmaq arzusundadır. O, qardaş ölkə Türkiyədə ”Qarabağ şikəstəsi” muğamını ifa edərək bizi layiqincə təmsil etmiş və yer tutmuşdur. Ölkəmizi, milli musiqimizi hər kəsə tanıdan Ədilə, gələcəkdə bir çox uğura imza atmaq istəyir. Azərbaycan musiqisi - Azərbaycan mədəniyyətinin bir qolu olub, Azərbaycan milli folklorunu təmsil edən, xalq və ya ayrı-ayrı azərbaycanlı bəstəkarlar tərəfindən yaradılmışdır. Azərbaycan musiqisi çoxəsrlik inkişaf yolu keçmişdir. Onun kökləri əsrlərin dərinliklərinə gedib çıxır. Çox qədim zamanlardan - Qobustanda qayaüstü rəsmlərdən (yallı-rəqs) - başlayaraq Azərbaycanda melodiya və ritm zənginliyi ilə fərqlənən çoxlu sayda mahnılar, müxtəlif rəqslər, çobanların tütəkdə çaldığı havalar səslənir. Digər tərəfdən isə o, həkim olmaq istəyir. Hələki yolun başlanğıcında olan bu ağıllı bala mütləq ki, zaman keçdikcə gələcəyinə dair qərarlarında daha əmin olacaq. Əsas odur ki, sevdiyi peşəyə yiyələnsin və bu peşəni layiqincə yerinə yetirsin.

Boş zamanlarında isə o, şeir və kitab oxuyur dərslərini hazırlayır. Müəllimlərinin və sevdiklərinin başını hər zaman uca edir.

Əliyevlər ailəsi 3 nəfərdən ibarətdir. Atası Əliyev Xoşbəxt neftçidir, gəmidə işləyir. Anası Ağayeva Asiman ev xanımıdır. Valideynləri onu gələcəkdə savadlı və kamallı bir gənc kimi görmək istəyir. Evin tək qızı olan Ədilə sonda ailəsini və müəllimlərini çox sevdiyini əlavə edib.

Bizdə kollektivimiz adından Ədiləyə uğurlar arzulayıb həyatında daha çox zəfər və müvəffəqiyyət arzu edirik. Qoy gələcəyi parlaq, ömür yolu xoş günlərlə zəngin olsun.



# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S. Vurğun və S. Rüstəmin, musiqisi Ü. Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament ”Azərbaycan Respublikasının Dövlət Himni haqqında” Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli ”Azərbaycan marşı” Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

**Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır**

*Heydər Əlirza oğlu Əliyev*



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəllliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# Şahana Nəcəfova





**Bir elm öyrənmək istədikdə sən**
**Çalış ki, hər şeyi kamil biləsən**
**Kamil bir palançı olsa da insan**
**Yaxşıdır yarımçıq papaqçılıqdan.**
***(Nizami Gəncəvi)***

Heç bir millət qılınc və tüfənglə qabağa getməyibdir. Ancaq elmin gücünə tərəqqi etmək mümkündür. Təhsilin inkişaf etdirilməsi, keyfiyyətcə yeni tərəqqi meyilləri və motivlərinin əldə olunmasına təkan verən mühüm amillərdən biri də bu sahəyə yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsidir. Məhz bu proses Azərbaycanın təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya olunmasına gətirib çıxaran başlıca meyilləri özündə ehtiva edir.

Ağaclar çoxdur, lakin hamısı meyvə vermir. Meyvələr də çoxdur, lakin hamısı dadlı deyil. Elm də çoxdur, lakin hamısı faydalı deyil demişdir İsa peyğəmbər.

Müsahibimiz Şahanə Nəcəfova Fəzail qızı 2009-cu il dekabrın 1-i Sabirabad rayonu, Nəsimi kəndində anadan olub. O, indi Sabirabad rayonu Nəsimi kənd R. Əhmədov adına tam orta məktəbin 3b sinif şagirdlərindən biridir. 2015-ci ildə ilk dəfə məktəbə yollanan Şahanə müəllimlərini çox sevdiyini və oxumağa qarşı həvəsli olduğunu deyir. O, hər zaman aktivliyi, dərsə hazırlığı ilə seçilir. Şahanə həmçinin sinif əlaçısıdır. Çalışqan və bacarıqlı olan bu gözəl qız bir çox fənləri çox sevir. Ən çox sevdiyi fənn isə riyaziyyatdır. O, qayğıkeş və səbirli olan müəllimi Hümbətova Kəmalə müəllimin adını xüsusilə qeyd etdi. Gələcəkdə də, məhz onun kimi bir mütəxəssis müəllim olmaq şagirdlərə elmin dərinliklərini öyrətmək, onlara bilik və savad qazandırmaq arzusundadır. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq. Müəllim elm, bilik xəzinəsinin qapısını insanların üzünə açan bir varlıqdır. Elə buna görə də dünyada müəllim əməyinin bənzəri yoxdur.

Asudə vaxtlarının şəkil çəkməyə, kitab oxumağa sərf edir.

Nəcəfovlar ailəsi 6 nəfərdən ibarətdir. Atası Fəzail Nəcəfov usta, anası Şahbazova Sevda isə evdar qadındır. Onlar hər zaman övladlarına dəstək olduqlarını, gələcəkdə onu savadlı bir gənc kimi görmək istədiklərini bildiriblər. Şahanənin Aysun və Mənzurə adlı iki bacısı və İsmayıl adlı bir qardaşı var.

Kollektivimiz adından Şahanəyə məktəb həyatında uğur, gələcəkdə isə peşəkar bir müəllim kimi yetişməsini arzu edirik. Qoy uğurları ilə daim müəllim və valideynlərini sevindirsin.

# Səid SEYFULLAZADƏ



**"Yaxşı kitabı oxuyanda ilk dəfə oxuyanda bizə elə gəlir ki, yeni dost qazanmışıq. Həmin kitabı təkrar oxumaq köhnə dostu yenidən görməkdir"**

***(F. Volter)***

Bu günün şagirdi sabahın tələbəsi, gələcəyin mütəxəssisidir. Bu gün qloballaşan dünyanın yeni çağırışları yüksək biliyə malik gənclərin daha çox olmasını tələb edir. Ölkəmizin ümumtəhsil müəssisələrində gedən proseslər, həyata keçirilən bir sıra tədbirlər də məhz böyüməkdə olan gənc nəslə müasir düşüncə tərzinin formalaşdırılmasına, onları idarəetmə və tədqiqatyönlü fəaliyyətə cəlb edilməsinə hədəflənib. Dövlətimizin təhsilə, elmə göstərdiyi qayğını qiymətləndirən gənc gələcəkdə istənilən sahədə idarəedici olur. Seyfullazadə Səid də jurnalımızın seçmə qəhrəmanlarından olmaqla gələcəkdə hərbçi olmaq istəyir.

Seyfullazadə Səid Rövşən oğlu, 11 sentyabr 2004-cü ildə Biləsuvar rayonunda anadan olub. 2010-cu ildə Ələvsət Eynullayev adına 4 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olan Səid artıq 9a sinif şagirdidir. Səid də ibtidai sinifdən elmə, biliyə daha çox maraq göstərən şagirdlərdəndir. Həm məsuliyyətli, həm də özünə qarşı tələbkardır. Valideynlərinin güclü nəzarəti, özünün məsuliyyətli və Sona müəlliminin peşəkarlığı nəticəsində Səid ibtidai təhsildə bünövrəsini möhkəmləndirə bilib. Sona xanım Səidin ilk müəllimidir. Demək olar ki, dərs dediyi bütün şagirdləri Sona müəllimdən bir ana qayğısı görüb, elə o cümlədən Səid də müəllimindən çox razı qalıb.

Səid oxuduğu bütün illər boyu əla qiymətlər alıb. Bu çalışqan oğlan demək olar ki, məktəbin ən fəallarındandır. Məktəbdə keçirilən bütün tədbirlərdə fəal iştirak edir. Elə bu səbəbdən də oxuduğu məktəbin rəhbərliyi və müəllim heyətinin sevgisini qazana bilib. Bütün müəllimlərinə böyük hörməti olan Səidin sevdiyi müəllimlərinin sırasında 5-8-ci siniflərdə sinif rəhbəri olan Sevda Poladova, 9-cu sinifdən etibarən isə sinif rəhbəri, həm də tarix fənnini tədris edən Elmin Nuri, Kimya fənnini tədris edən Gültəkin Mirzəcanova və riyaziyyat fənnini tədris edən Gülarə Əzizovadır.

Səid 2017-ci ilin dekabr ayında Biləsuvar rayonunda Kimya üzrə keçirilən olimpiadada da yüksək bal toplayaraq II yerə nail ola bilib. Qarşısına qoyduğu məqsədlərinə can atan Səid gələcəkdə hərbçi olmaq istəyir. Gələcəyin güclü hərbçisi "Sağlam canda sağlam ruh" prinsipinə əsaslanaraq idmanla da məşğul olur. Bir neçə müddətdir ki o, Qaydasız Döyüş üzrə məşqlərə qatılıb.

Asudə zamanlarında bədii ədəbiyyat və başqa sahəyə aid kitablar oxuyur, musiqi dinləyir və mütaliə edir. Ailəsi də onunla qürur duyur və gələcəyinə inamla yanaşırlar.

Ailəsi 4 nəfərdən ibarətdir. Atası Seyfullazadə Rövşən İnqilab oğlu, sərbət peşə sahibidir. Anası Seyfullazadə Ülviyyə Qaçay qızı, Ə. Eynullayev adına tam orta məktəbdə fransız dili müəllimidir. Bacısı Seyfullazadə Səidə isə 8-ci sinifdə oxuyur.

Biz də " Çağdaş Təhsil" jurnalının kollektivi olaraq, Səidə uğurlar diləyir, bütün arzu və istəklərinə çatmasını arzu edirik. Elm-təhsil onun həyatının yaxşı mənada xilaskarı olsun.



# Nuruyeva Firəngiz



**Ey hörmətli müəllim**
**Hər könüldə yerin var.**
**Hər kənddə, hər şəhərdə**
**Sənin meyvələrin var.**

Firəngiz müəllimənin uzun illər çəkən elm yolu öz şagirdlərinin və onların valideynlərinin gözündə çox böyük dəyərə sahibdir. Bunu onların hər bir sözündən, rəğbətindən hiss etmək olar. Firəngiz müəllimə 1965-ci ildə Qazax rayonunun Yuxarı Əski para kəndində dünyaya göz açıb. Süleyman Rüstəm demişkən, "Müəllimin də müəllimi olubdur əlbət". Firəngiz müəllimə də 1972 -ci ildə Aşağı əski para kəndində 1-ci sinifə gedib və müəllimlərindən hər bilgini ilmək -ilmək toxumaqla öyrənib. 1982-ci ildə məktəbi bitirdikdən sonra Bakı Məktəbəqədər Pedoqoji məktəbə daxil olub. Tələbəlik illərində şagirdlərinə öyrədəcəyi hər elmin axırına çıxağa çalışıb. 2005-ci ildə isə artıq savadı və bacarığı ilə seçilən Firəngiz müəllimə 306 saylı məktəbdə Uşaq birliyinin rəhbəri vəzifəsində çalışıb. 2006-2007 ci illərdə ixtisas dəyişmə İnstitutunu bitirərək ibtidai sinif ixtisasına yiyələnmişdir. Və bununla da şərəfli müəllimlik həyatına qədəm qoymuşdur. Hal-hazırda 306 saylı məktəbin ibtidai sinif müəllimi işləyir. Yüzlərlə şagird yetişdirən, ən önəmli təməl bilikləri öyrədən Firəngiz müəlliməni həm şagirdləri həm də valideynlər çox sevir. Valideynlərdən bəziləri ilə söhbət edərkən Firəngiz müəllimə haqqında çox yüksək və dəyərli fikirlərə sahib olduqlarını gördük. Onların sözlərinə görə, Firəngiz müəllimə şagirdləri arasında heç bir fərq qoymadan, səbr və təmkinlə onları başa salır. Dərslərdə mütəmadi iştirak edən valideynlər bildirdilər ki, hər zaman dərsdən xoş təəssüratlarla ayrılıblar. Mehribanlığı, gülərüzlülüyü və savadı ilə şagirdlərin və valideynlərinin qəlbində taxt qurub Firəngiz müəllimə.

# İqbal Hüseyinov



**Dünyada nə qədər kitab var belə**
**Çalışıb əlləşib gətirdim ələ**
**Oxudum, oxudum, sonra da vardım**
**Hər gizli xəznədən bir dürr çıxardım.**
**(Nizami Gəncəvi)**

İqbal həyatında bu sözləri özünə şüar seçərək ömür yollarında irəli addımlamağa başlayıb. Həm elm həm idmanda olan uğurları bunu göstərir ki, daima öz üzərində çalışıb, irəli getməyə can atan gənclərimizdən biridir. İqbal Hüseyinov 18 oktyabr 2001-ci ildə Sumqayıtda anadan olub. Sanki doğulanda alnına yazılmışdı onun kiçik yaşlarından olacaq uğurları. 2007 -ci ildə Masazırda Laçın rayonu 15 saylı tam orta məktəbin birinci sinifinə başlayıb. Məktəbi əla oxumaqla yanaşı uşaqlıqdan idmana olan həvəsi ilə seçilib. İqbal uşaq yaşlarından başlayaraq güləş və qaydasız döyüş idman növləri ilə məşğul olurdu. Qaydasız döyüş üzrə 2 dəfə Azərbaycan çempionu olub, dəfələrlə müxtəlif turnirlərdə iştirak etməklə fərdi qalibiyyətlər və mükafatlar qazanıb. İqbal həmçinin güləş üzrə də Azərbaycan çempionatında iştirak edib, 2-ci və 3- cu yerlərdə qərarlaşıb. Bu az yaşına rəğmən əldə etdiyi uğurlar onun gələcəkdə də necə bir şəxsiyyət kimi formalaşacagının əlamətləridir.

2013 -cü ildə müəyyən səbələrdən Kəlbəcər rayon 126 saylı tam orta məktəbin 6-cı sinifinə başlayır. 2018 ci ildə isə ele həmin məktəbin 11-ci sinifini bitirir. DİM-in təşkil etdiyi imtahanlar da da müvəffəqiyyətlə nəticə göstərib, ali məktəbə qəbul olur. İqbal Azərbaycanın ən prestijli universitetlərindən biri olan Azərbaycan Dövlət İqtisad Univeristetinin Dünya iqtisadiyyatı fakultəsinə daxil olub. Hal- hazırda tələbəliyin dadını çıxarmaqla yanaşı, daima öz üzərində çalışır və daha çox nailiyyətlər əldə etmək istəyir. Atası Qaçay bəy və anası Əfsanə xanımın ən böyük arzularından biri övladlarının hər bir uğuruna ürəklə sevinmək və onun arxasında dayanmaqdır. Uşaqlığından bəri qoçaqlığı, əzmi və iradəsi ilə seçilən İqbal gələcəkdə də hər zaman inkişaf edəcəyini deyir.

Onun yaxınları, qohumları, ailəsi, bir sözlə onu tanıyan hər kəs düşünür ki, "İqbal çalışqanlığı, istedadı və zəkasının gücü və səyləri nəticəsində qazandığı uğurların davamı olaraq, gələcəkdə də Azərbaycanın ən hörmətli ziyalılarından biri olacaq. " Biz də ümid edir və arzulayırıq ki, İqbal Azərbaycanın adını layiqincə yüksəklərdə ucaldacaq ən fəal gənclərindən olsun.



# ƏZİMZADƏ BƏHRAM





**"Kim özündən çox bilənlə mübahisə etsə ki, biliyi meydana çıxsın, biliksizliyi ortaya çıxar"**
**(Sədi Şirazi)**

Azərbaycanda təhsil siyasətinin formalaşdırılması təhsil sistemində aparılan islahatların sosial-iqtisadi əhəmiyyətinin artırılması vacib məsələ kimi qarşıya qoyulmalıdır. Bu gün dünyada bilikli, bacarıqlı və müasir texnologiyadan yararlanan mütəxəssislərin ölkənin, cəmiyyətin inkişafında böyük rolu var. Təcrübə göstərir ki, yüksək bilik və bacarığa malik kadr potensialı olan ölkələrdə yoxsulluq səviyyəsi də aşağı olur. Deməli, keyfiyyətli kadr potensialına malik olmadan iqtisadi inkişafa nail olmaq qeyri-mümkündür. Daha geniş ifadə etsək cəmiyyətlərin iqtisadi inkişafı təkcə iş və kapitaldan asılı deyil, eyni zamanda texnologiyanın inkişafı ilə işçi qüvvəsinin texnoloji baxımdan keyfiyyətinin yaxşılaşdırılmasından da asılıdır. Odur ki, ölkəmizdə güclü təhsil sistemi və keyfiyyətli təhsil siyasəti və peşəkar kadrlar yetişdirilməlidir ki, onların da təhsil verdiyi şagirdlər yüksək təhsil alsınlar.

Əzimzadə Bəhram Elşən oğlu 2004-cü il 10 iyun tarixində Sabirabad rayonu Qaratəpə kəndində anadan olub. Bəhram 2010-cu ildə elə bu rayonda Osman Mirzəyev adına Qaratəpə kənd tam orta məktəbinə yollanıb. Müəllimlərinin sevimlisi olan Bəhram hal-hazırda 9-cu sinifində təhsil alır və qiymətləri yüksəkdir. Çalışır ki, ona tədris edilən bütün fənləri oxuyub, ətraflı məlumatlı olsun. Riyaziyyat fənnini daha çox sevdiyini əlavə etdi. Ən çox sevdiyi müəllimənin isə Aygun müəllimə olduğunu vurğuladı. Bəhram bütün məktəb tədbirlərində həvəslə iştirak edir. Məktəbdə tədbir üçün sinif yoldaşları ilə birlikdə teatr hazırlayan Bəhram, bu tədbirin hər kəs tərəfindən sevildiyini və alqış səsləri ilə qarşılandığını qeyd edib. Bu tədbirlər sayəsində şagirdlərin birliyi, fəallığı və çalışqanlığı üzə çıxır. Bəhram turizm və otelçiliklə məşğul olmaq istədiyini bildirib. Hal - hazırda turizm bir çox ölkələrin büdcələrinin gəlirlərinin əsas hissəsini təşkil edir. Azərbaycanda turizm neft sektorundan sonra ikinci əsas prioritet sahələrdən hesab olunur. Mütəxəssislərinin hesablamalarına görə, 2023 - cü ilə qədər ölkədə turizm işçilərinə olan tələbat 75. 000 nəfərdən çox olacaq. Bəhramda bu gənclərdən biri olmağa çalışır. Gələcək təhsilini də bu sahə üzrə davam etdirməyi planlaşdırır.

Boş zamanlarında isə dərsləri ilə məşğul olur, həmçinin dostları ilə birlikdə futbol oynayaraq gününü səmərəli keçirir. Onun aktyorluq məharəti də var. Məktəb daxilində bir çox tədbirlər üçün yazılan ssenariyə uyğun hazırlanmış kiçik teatr tamaşasında iştirak edib və bu məktəb kollektivi tərəfindən çox bəyənilib.

Bəhramın ailəsi 5 nəfərdən ibarətdir. Atası Əzimzadə Elşən 1975-ci ildə anadan olub. Anası Əzimzadə Günay 1981-ci ildə anadan olub, evdar qadındır. Atası və anası daim övladlarına dəstək olduqlarını bildirir və onlara parlaq gələcək arzulayır. Onlar övladlarının taleyinin xoş olmasını və arzularının çin olmasını diləyirlər. Bəhramın iki qardaşı var. Əzimzadə Rövşən 7-ci sinifdə, Əzimzadə Bahadır isə 11 -ci sinifdə oxuyur. Bəhram sonda ailəsini çox sevdiyini deyərək, dərslərinə və gələcəkdə sahib olmaq istədiyi peşə üçün çox çalışdığını deyib.

Kollektivimiz adından Bəhrama həyatında bol uğur və dərslərində müvəffəqiyyətlər arzulayırıq. Qoy öyrəndiyi bütün elmlər onu gələcək həyatında uğurlu bir turizm mütəxəssisi, peşəkar kadrı olmasına rəvac versin.

# NURUYEVA RUQİYYƏ





**"Hər qab içinə bir şey qoyduqca daralır. Ancaq elm qabı istisnadır: o, elm qoyulduqca genişlənir"**

**(Hz. Əli ə. s.)**

Kitabsız yaşamaq olmaz, kitab insanın ən yaxşı dostudur. Müasir dünyada elə bir adam tapılmaz ki, əlində kitab tutmasın. Kitablarla biz yeni nələrsə öyrənirik, başqa-başqa xarici ölkələrdə olan həyatı tanıyırıq. Kitablar var elmi kitablardır, bir də var bədii kitablar. Bir çoxları bu cür bədii kitabları yaxşı istirahət mənbəyi kimi hesab edir. Lakin bu heç də belə deyil. Hər kitabdan mütləq nəsə öyrənilir, mütləq nəsə əxz edilir.

Ən kiçik yaşlarımızdan kitabların bizə açdığı nağıllar aləminin möcüzələrinə qərq oluruq. Məktəbə gələrkən biz yenə də həyatımızın kitabı olan əlifba ilə qarşılaşırıq. Əlifba bizi hecalıya-hecalıya oxumağı öyrədir, lakin sonra biz artıq oxumağı bacarandan sonra bizim üzümüzə elm aləminin yolları açılır. Və bu yolla necə getməyimiz onun elm dərəcəsindən asılıdır. Bu açılan yolda inamla addımlayan qəhrəmanlarımızdan biri də Ruqiyyə Nuruyevadır.

Nuruyeva Ruqiyyə Nurəli qızı 2007-ci il aprel ayının 7-i Sabirabad rayon Cavad kəndində anadan olub. O, 2014-cü ildə Teymur Məmmədov adına 1 saylı tam orta məktəbinə başlayıb. Ruqiyyə hazırda bu məktəbin 6-cı sinifində təhsil alır. Məktəbə ilk başladığı günlərdən aktiv şagird olan Ruqiyyə bütün dərslərini yaxşı oxuyur. Ən çox sevdiyi fənlər isə təsviri incəsənət, Azərbaycan dili, rus dili, riyaziyyat, biologiya fənləridir. Bu fənləri ona tədris edən müəllimləri də çox sevdiyini söyləyən ağıllı bala onların da adlarını vurğuladı. Onlar Sədulla, Fəxri, Gülnarə, Südabə adlı müəllimlərdir ki, Ruqiyyə onların dərslərini daha həvəslə oxuyaraq mənimsəyir. Gələcəkdə yiyələnmək istədiyi peşə isə həkimlikdir. Hansısa peşədə uğur qazanmaq üçün mütləq qaydada gördüyün işin əhli, adamı olmalısan. Həkimlikdə əsas hədəf insanların sağlamlığının qayğısına qalmaq, onlara daim köməklik göstərməkdir. Ruqiyyə əmindir ki, gələcəkdə peşəkar və vicdanlı bir həkim olacaq.

Boş zamanlarında kitab oxuyur və rəsm çəkərək vaxtını səmərəli şəkildə keçirir. Həmçinin o, boş zamanlarında əl işləri düzəltməyə maraq göstərir. O, bu işindən xüsusi zövq alır.

Ruqiyyənin ailəsi 4 nəfərdən ibarətdir. Atası Nuruyev Nurəli Əlvan oğlu qaynaqçıdır. Anası Nuruyeva Səbinə Mirkərim qızı evdar qadındır. Onlar Ruqiyyənin peşakar həkim olacağı günü səbirsizliklə gözləyir. Ruqiyyənin qardaşı Nuruyev Nurməhəmməd Nurəli oğlu 2003-cü ildə anadan olub, 10-cu sinifdə təhsil alır. Yaşca özündən böyük olan qardaşı, ona daim dərslərində köməklik göstərir, elmi biliklərini onunla paylaşır.

Biz də jurnalımız adından bu gözəl balaya dərslərində bol uğur və nailiyyətlər arzu edirik. Həyatı istədiyi kimi parlaq və gözəl olsun. Müəllim və valideynlərinin sevinc mənbəyi olsun.



# Leyla Şahin qızı Paşayeva



Bu gün təhsilə göstərilən qayğı məktəblərdə dərslərin keyfiyyətini daha da artırmışdır. Yüksək keyfiyyətli tədris onun sübutudur ki, ölkəmizin gələcəyi savadlı kadrların əlində olacaqdır. Bu da bir dövlət üçün, onun inkişafı üçün çox vacibdir.

Millət vəkili YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva bu məqsədlə bir çox yerlərdə, şəhər və rayonlarda orta məktəb binaları tikdirmiş və məktəblərdə əsaslı təmir işlərinin aparılmasına xüsusi göstəriş vermişdir.

Bakı şəhərində orta məktəblərdə təlimin keyfiyyətinin yüksəlməsi və yeni təhsil islahatlarının həyata keçirilməsi yolunda bir sıra mühüm addımlar atılmışdır.

Gələcəyimizin inkişafı üçün orta məktəb rəhbərləri də əllərindən gələni edir, rəhbərlik etdikləri tədris ocaqlarında xüsusi qayda-qanun yaradır, şagirdlərin yüksək elmə yiyələnməklərinə doğru yol göstərirlər. Leyla Şahin qızı Paşayeva da gələcəyimiz olan uşaqların düzgün təlim-tərbiyə almasında, elmə, biliyə yiyələnməsində öz köməkliyini əsirgəmir. İşlədiyi orta məktəbdə mehriban müəllim kollektivi vardır ki, övladlarımızın xoşbəxt gələcəyi naminə əl-ələ verib, şagirdlərin yüksək elmə yiyələnmələrinə doğru yol göstərirlər. Haqqında söhbət açacağım xanım da müəllim adının ucalığını, müqəddəsliyini, əvəzedilməzliyini bütün varlığı ilə duymuş, öz ömrünü bu şərəfli ada həsr edəcəyi arzusu ilə Gəncə Dövlət Universitetinin biologiya fakültəsinə daxil olmuşdu. Gəlin Leyla xanım Paşayevanın 37 illik həyat yoluna nəzər salaq.

Paşayeva Leyla Şahin qızı 1981-ci ildə Tərtər rayonunda ziyalı ailəsində anadan olub. 1987-ci ildə Tərtər rayonunun 6№ li Tam orta məktəbinin I sinfinə daxil olub. 1998-ci ildə Tərtər rayon 6№ li Tam orta məktəbin XI sinfini bitirərək Gəncə Dövlət Universitetinin biologiya fakültəsinə daxil olub. 2002-ci ildə həmin Universiteti bitirib, Tərtər rayon 6№ li Tam orta məktəbində fəaliyyətə başlayıb. Abşeron rayon Masazır qəsəbəsinə ailəliklə köçməsi ilə əlaqədar olaraq 15. 09. 2011 -ci ildən müəllim, 2011-ci ildən, yəni həmin ildən də hazırkı günə qədər Kəlbəcər rayon 126 nömrəli tam orta məktəbində tədris işləri üzrə direktor müavini işləyir.

Ailəlidir, iki övladı var. Övladları Kəlbəcər rayonu 126 № li Tam orta məktəbdə təhsilini davam etdirirlər.

Bəli, müəllim elə bir varlıqdır ki, varlığına ehtiyac duymamaq mümkün deyil. Bu ad olan yerdə mənəviyyat, milli şüur var. Müəllimsiz həyat susuz dəyirmana bənzəyir. Müəllim müqəddəs ucalıqdır, dahidir, əvəzedilməzdir.

Leyla xanım Paşayeva da fəaliyyət göstərdiyi məktəbin bütün şagirdləri üçün yaxşı örnəkdir, desək, yanılmarıq. Şagirdləri onu öz doğması kimi sevir, hörmət bəsləyirlər.

İnanırıq ki, Leyla xanım Paşayeva bütün ömrünü bu şərəfli peşəyə həsr edəcək, heç bir çətinlik onu qorxutmayacaq.

# Sultanov Salman



***Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər.Çünki mənəviyyatımız, gənclərin bu günkü və gələcək mənəviyyatı bununla bağlıdır.***

***Heydər Əliyev***

Bütün həyat və yaradıcılığını dinlədikdə əslində canlı tarix demək olar bəlkə də Salman müəllimə. Keşməkeşli həyat yollarından keçməklə uzun zaman ərzində çoxlu və dəyirli vəzifələrdə çalışıb. Salman müəllim 1951-ci ildə Azərbaycanın ən gözəl səfalı guşələrindən biri olan Kəlbəcər rayonunda dünyaya göz açıb. Elə həmin rayonun Almalı kənd orta məktəbini bitirib. Məktəb illərindən necə bilikli və dünyagörüşlü olmağı elə o vaxtkı müəllimləri tərəfindən aydınca sezilirdi. Məktəbi 1969-cu ildə bitirdikdən sonra Gəncə Dövlət Universitetinin Tarix fakultəsinə qəbul olur və 1973 cü ildə tələbə yoldaşlarından fərqli bilik və bacarıqları ilə məktəbi bitirir. Uşaqlıq və tələbəlik həyatı rəngarəng olduğu kimi iş və vəzifə həyatı da çox geniş olur Salman müəllimin. Universiteti bitirər-bitirməz öz doğma kəndinə qayıdaraq müəllim işləməyə başlayır. Öz müəllimlərindən öyrəndiyi bilik və bacarıqları bu dəfə parta arxasında əyləşən şagirdlərinə öyrədir səbrlə. 1974-1975 ci illərdə Ali Partiyada işə qəbul olur. 1975-1978 ci illərdə isə öz doğma məktəbinə direktor kimi qayıdır artıq. Salman müəllim dövrünün ən gənc fəallarından biri olur. Daima öz üzərində işləməklə uğura gedən yolunu özü yazır, demək olar ki. Gənc yaşlarında Xalq İcrayət Komitəsinin sədri seçilir. Və təbii ki bununla da bitmir Salman müəllimin gördüyü işlər. Müxtəlif illərdə rayon sovetinin deputatı, kənd sovetinin deputatı vəzifələrində çalışır. Bitmək bilməyən arzu və istəyi ilə daim irəliyə can atır. 1980-ci ildə Ağdam rayonunun Şıxbabalı kənd orta məktəbində direktor vəzifəsində çalışır. 1993-cü ildə isə Kəlbəcər rayonu 41 saylı tam orta məktəbdə müəllim işləyir. 1999-cu ildən 2014- cü ilə qədər kəlbəcər rayonu 126 saylı tam orta məktəbin direktoru olmuşdur. Hal- hazırda isə Salman müəllim həmin məktəbin ən peşəkar və bilikli tarix müəllimlərindən biridir. Salman müəllimin sözlərinə görə onun həyat qayəsi öz zəngin təcrübə və biliklərini illərdir yetişdirdiyi çox saylı tələbələrinə öyrətməkdir. Bizə də belə bir şərəfli müəllimin zəhməti qarşısında baş əymək düşür.



# QƏDİROVA İLHAMƏ







**"Ancaq elm bəşəriyyəti həqiqətə, ədalətə və xoşbəxtliyə apara bilər"**

**(Emil Zolya)**

Elm yarandığı gündən insanların əmək məhsuldarlığının artırılması və bunun sayəsində onun rifahının yaxşılaşdırılmasına xidmət etmişdir. Elmlə məşğul olan şəxslərə "alim" deyilir. Onlar insanların arasından öz bacarığı, savadı və düşüncəsi ilə fərqlənirlər. Təhsilinə diqqət yetirib, çoxlu mütaliə edən insanlar həyatda daha çox şey əldə edir. Təhsili olmayan bir xalq müstəqil ola bilməz. Hər bir şəxs öz keçmişini, tarixini bilməlidir ki, gələcəyini qura bilsin Müvəffəqiyyət heç vaxt gözlədiyimiz yerə gəlməyəcək. Bunun üçün çalışmalı, zəhmət çəkməli, ona doğru irəliləməliyik. Elmin, təhsilin əhəmiyyətini anlayanlardan biri də İlhamədir.

Qədirova İlhamə Xalid qızı 2010-cu il avqustun ayının 20-i Sabirabad rayon Bulaqlı kəndində anadan olub. O, Sabirabad rayon V. Quliyev adına Bulaqlı kənd tam orta məktəbin 3-cü sinif şagirdidir. 2016-cı ildə məktəbə başlayan İlhamənin dərslərə böyük həvəsi var. İlhamənin ən sevdiyi dərs Azərbaycan dili dərsidir. Ən sevdiyi müəllim isə Yeganə müəllimdir. İlhamə gələcəkdə peşakar həkim olmaq arzusundadır. İlhamə çalışqan və məsuliyyətli şagirddir. Onun bu çalışqanlığı, dərsə məsuliyyətlə yanaşması sinif əlaçısı olmağına səbəb olub. O, məktəbin sonuna kimi bu uğurunu davam etdirmək və məktəbi əla qiymətlərlə bitirmək istəyir. İlhamə savadlı həkim olmaq üçün çox çalışacağını və insanlara ən çətin anlarında yaxından kömək olacağını bildirib. O, asudə vaxtlarını səmərəli keçirmək üçün daim əlindən gələni edir. Boş zamanlarında kitab oxuyur və mütaliə edir ki, öyrəndiyi məlumatlar yadından çıxmasın.

Qədirovalar ailəsi 4 nəfərdən ibarətdir. Atası Qədirov Xalid, anası Qədirova Süreyyadır. Onlar İlhaməni gələcəkdə savadlı həkim kimi görmək istədiklərini bildiriblər. İlhamənin qardaşı Qədirov Əlövsətin 5 yaşı var.

Jurnalımız adından İlhaməyə uğurlarının davamlı olmasını arzulayır və gələcəkdə savadlı bir həkim olub məqsədinə nail olmağını diləyirik. Ömür yolu aydın, həyat təcrübəsi zəngin olsun.



# RƏSULOVA SÜSƏN









**"Kitabı sevin, o sizin həyatınızı asanlaşdıracaq, bir dost kimi müşküllü qarışıq fikirlərin, hisslərin, hadisələrin öhdəsindən gəlməyə yardım edər. Kitab sizi insana və özünə hörmət etməyi öyrədəcək, ürəyinizi və dünyanızı insana qarşı sevgi hissi ilə dolduracaq"**

***M. Qorki***

Kitab - dünyada mövcud olan ən gözəl nemətdir. O bütün insanların elm və bilik mənbəyidir. Kitabların sayəsində biz ətrafımızda olan hər bir şeyin qayğısına qalmağı, qədrini bilməyi, sevməyi və necə əməyə yiyələnməyi öyrənirik. Əgər kitab və dərsliklər olmasaydı o zaman bütün əhali savadsız, özünə necə yardım etməyi, yardım üçün kimə müraciət etməyi bilməyən bir toplum olacaq. Lakin insanların qədim zəmanədən bəri əldə etdikləri bilgiləri itirməmək üçün ağac, sonralar isə kağız üzərində yazıb saxlaya bilməsi sayəsində müasir dövrdə kitabların sayı cəhətdən heç bir əziyyət çəkmir. Orta əsrlərdə kitab çox bahalı bir nemət idi və hər hansısa bir evdə kitabın olması böyük bir zinət sayılırdı. Kitabların bu cür bahalı olması onların çətinliklə çap olunmasından, ərsəyə gəlməsindən irəli gəlirdi. İndi isə hər bir insanın, hətta çox varlı olmayanın belə yəni kitaba meyilli, cidi oxucunun evində kitabxanası var. Kitab bizə hər bir şeyi öyrədir: necə dostluq etməyi, necə yaşamağı və layiqli bir insan kimi davranmağı.

Rəsulova Süsən Rəsul qızı 2007-ci il dekabrın 6-ı Sabirabad rayon Axatçı-Muğan kəndində dünyaya göz açıb. Süsən ilk dəfə olaraq 2014-cü il Sabirabad rayon Sabir Ağayev adına tam orta məktəbə yollanıb. O, indi həmin məktəbin 5 b sinifində təhsilini uğurla davam etdirir. Süsən dərslərini yaxşı oxuyur. Ən sevdiyi fənlər təsviri incəsənət və ingilis dili fənnidir. Süsən bu fənləri oxumaqda ona kömək edən müəllimlərinin adını da vurğulayıb. Nigar müəllim və Züleyxa müəllimi çox sevdiyini dedi. O, gələcəkdə Tibb fakültəsinin tələbəsi olmağa hazırlaşır. Ən böyük arzusu həkim sənətinə yiyələnməkdir. Olduqca diqqət və zəhmət tələb edən bu peşəni layiqincə yerinə yetirməyə hazır olduğunu deyən Süsən, bunun üçün daim kitab oxuyur və mütaliə edir ki, həkim kimi yetişməyə bilgisi olsun.

Boş zamanlarında dərslərini hazırlayır və kitab oxuyaraq vaxtını səmərəli şəkildə keçirir.

Atası Rəsul Rəsulov işləyir. Anası Mehriban Rəsulova isə evdar qadındır. Hər bir valideyn kimi onlar da Süsəni gələcəkdə peşəsinin əhli olan, savadlı bir həkim kimi görmək istədiklərini bildiriblər. Süsənin yaşca özündən böyük olan Zöhrəbani adlı ailəli olan gözəl bir bacısı var.

Jurnalımız adından Süsənə dərslərində nailiyyət, gələcəkdə peşəsini layiqincə yerinə yetirən bir həkim olmağını arzulayırıq.



# PƏRVİN ORUCOVA



**Mənim ümmətimdən hər bir ağıl sahibinə bu dörd şey vacibdir: elmi eşitmək, onu öyrənmək, yaymaq və ona əməl etmək.**

***(Məhəmməd peyğəmbər s. a. a)***

Məktəb elm və maarifin bağı, ağıl və fikir çiçəklərinin meyvəsidir. Elm və mədəniyyət bir günəş, məktəb də o günəşin doğduğu yerdir. Mərifət nuru həmişə oradan saçılır. İnsanın həyatının əsl bəzəyi bilikdir. İnsan həyatını biliklə mənalandırmağa çalışmalıdır. Həyatda nəyəsə nail olmaq üçün çalışmaq lazımdır.

Kimliyindən asılı olmayaraq hamı çalışmalıdır, çünki onun uğuru çalışmağındadır. Çalışmaqla yanaşı həyatda inamlı, ümidli olmaq lazımdır. Çünki ümid və inam insanı son ana qədər aparır. Elə bu inamla yola çıxan Pərvin Orucova da təhsilli və elmli gələcəyə ümidlidir.

Pərvin Orucova Namiq qızı 2005-ci il 28 aprel tarixində Sabirabad rayonunda anadan olub. O, 2012-ci ildə ilk dəfə olaraq Sabirabad rayon T. Məmmədov adına tam orta məktəbə qədəm qoyub. Pərvin hal-hazırda elə həmin məktəbin 7b sinifində təhsilini uğurla davam etdirir. Pərvin savadlı və bacarıqlı bir şagirddir. Onun ən çox sevdiyi fənlər Azərbaycan dili, fizika, kimya fənləridir. Ən sevdiyi müəllimlər isə Aysel müəllim, Leyla müəllim, Fidan müəllim, Yeganə müəllim və Teymur müəllimdir. O, müəllimlərinin zəhmətkeş, peşəkar və daim şagirdlərə qarşı mehriban olduqlarını bildirib. Pərvin çalışqan şagird olduğuna görə bir sıra uğura da imza atıb. O, Azərbaycan dili fənnindən birinci yerə layiq görülüb. Gələcəkdə ən böyük arzusu həkim kimi fəaliyyət göstərib insanların sağlamlığının qeydinə qalmaqdır.

Boş zamanlarında dərslərini oxuyur və daha çox informasiya əldə edir. Bununla yanaşı o, asudə vaxtlarında musiqi dinləməyi də sevdiyini qeyd edib.

Pərvinin atası Namiq Orucov 1977-ci il fevral ayının 27-i tarixində anadan olub, dəmir yolunda işləyir. Anası Gülnar Orucova 1982-ci il may ayının 12-i anadan olub, evdar qadındır. Pərvinin qardaşı Pərvaz Orucov 6- cı sinifdə oxuyur. Onlar dərslərində bir -birlərinə kömək edirlər. Bu mehriban uşaqlar daim çalışırlar ki, valideynlərinə baş ucalığı gətirsinlər.

Kollektivimiz adından Pərvinə dərslərində bol uğur və nailiyyətlərinin davamlı olmasını arzu edirik. Gələcəyi uğurlu, əldə edəcəkləri zəhməti və halal əziyyəti sayəsində olsun.

# SƏNAN SALMANLI







**Ağıl-kamal verdi sənə yaradan,**
**Çalışıb hər sirri öyrən hər zaman.**
***(Əvhədi Marağayi)***

Bütün elmlərin açarı sual işarəsidir. Müdriklik və mərdlik əzəmətin təməlidir. Ağıl insanın gözü, qüdrət isə əlləridir. Mərdlik olmasa, müdriklik faydasızdır.

Hər bir şagirdin vəzifəsi məktəbə başladığı ilk gündən etibarən dərslərinə qarşı məsuliyyətli olmalıdır. Şagirdləri dərsə sövq edən isə valideynlər və müəllimlərdir. Müəllim üçün ən vacib keyfiyyətlər humanizim və peşəkarlıqdır. Bu yer üzərində ən yüksək dəyər olan insana münasibətdir. Humanist münasibətlər şagirdin şəxsiyyətinə maraqdan, onun vəziyyətinə şərik olmaqdan, tələbkarlıqdan, şəxsiyyətinin inkişafına qayğı göstərməkdən ibarətdir. Əgər belə olmasa o şagirdi tam öyrənmədən, öyrədilmədən necə keyfiyyətli şəxsiyyət, insan formalaşdırmaq olar ki?. Gərək uşaqlıdan hər bir məsələ yerinə yetirilməli və verilən tərbiyəyə, təhsilə ciddi yanaşılmalıdır. Əgər belə olmasa bu gün jurnalımızın qəhrəmanı kimi tanıtdığımız, tərcümeyi halllarını işıqlandırdığımız istedadlı və nümunəvi şagirdlər bu həyatda öz layiqli yerini tuta bilməz.

Sənan Salmanlı Salman oğlu 2007-ci il 8 fevral tarixində Azərbaycanın isti guşələrindən biri olan Sabirabad rayonu Axatçı Muğan kəndində dünyaya gəlib. O, 2013-cü ildə ilk dəfə olaraq, Sabirabad rayon Axtaçı - Muğan kəndi Sabir Ağayev adına tam orta məktəbə yollanıb. Sənan indi elə həmin məktəbin 6a sinifində təhsil alır. Dərslərində fəallığı ilə seçilən Sənan Ədəbiyyat və Azərbaycan dili fənlərini çox sevdiyini söylədi. Sevdiyi müəllimlərinin də adını çəkən ağıllı bala, Ülkər müəlliminin daim ona dəstək verdiyini də vurğuladı. Sənan dərslərinə diqqət edir və çalışır ki, daha çox öyrənsin, daha çox bilsin. Bunun nəticəsidir ki, o artıq sinif əlaçısıdır. Savadlı sagirdimiz daha yaxşı nəticələr göstərmək üçün, daim oxuyur və çalışır. Onun gələcəyi ilə bağlı qurduğu planlar da sadə deyil. Sənanın arzuladığı peşə isə hərbiçi pilot olmaqdır. Pilot olmaq üçün çox çalışmaq lazımdır. İlk növbədə insanın psixoloji durumu sağlam olmalı və güclü, qorxmaz olmalıdır. Hərbiçi pilot olmağa hazırlaşan Sənan vətənini quru və hava sərhədlərindən düşməndən qorumaq istəyir. O, əlavə edib ki, vətəninini, xalqını qorumaq onun üçün çox önəmlidir. Bu onun ən öncül arzusu, kişilik, vətəndaşlıq borcudur.

Boş zamanlarında kitab oxuyur və dostları ilə birlikdə futbol oynamağı sevdiyini əlavə edib. Yəni həm zehni, həm də fiziki dincəlməyi üstün sayır.

Sənanın ailəsi 5 nəfərdən ibarətdir. Atası Salmanov Salman Müstəcəb oğlu 1972-ci il fevralın 1-i anadan olub, orta ixtissas təhsil ocağlarının birində çalışır. Anası isə Piriyeva Afaq Ağagül qızı evdar xanımdır. Onlar övladlarına güvəndiklərini, gələcəkdə savadlı, bilikli bir gənc olmasını arzu edirlər. Bütün valideynlər kimi övladlarının gələcəyinə inamla və ümidlə yanaşırlar.

Sənanın bir bacısı və bir qardaşı var. Salmanova Səadət 11-ci sinif, Salmanov Müstəcəbin isə 4 yaşı var. Onlar da bir-birlərinə arxa-dayaq, köməkdirlər.

Biz də öz növbəmizdə bu ağıllı balaya dərslərində uğur və gələcəkdə peşəkarcasına yetişmiş hərbçi pilot olmağını arzu edirik. Qoy onun arzuları elə qurduğu şirin xəyallarındakı kimi gerçək və uğurlu olsun.



# YUSİF HACIYEV





**”Təbiət insanı zülmətlə dövrələyir və onu daim işığa doğru getməyə məcbur edir. Bu işıq isə elmdir”**
**(İohann Volfanq Höte:**
**Alman mütəfəkkiri)**

Hər kəs öz həyat yolu ilə məktəbin, müəllimin insanın həyatında nə kimi rolu olduğunu bilib və qiymətləndirməlidir. Peşəkarlığın, biliyin, savadın, intellektin əsası məhz məktəblərdə qoyulur. Ona görə də, məktəbə yollanan hər bir kəs bunu bilməli və oxuduğu illər ərzində elmə yüksək dərəcədə maraq göstərməlidir.

Hələ ibtidai sinifdən təhsilin təməlini elə möhkəm qoymalısan. Haqqında yazacağımız 2-ci sinif şagirdi Yusifin valideynləri də övladlarının gələcəyini elmdə və təhsildə görmələrini arzulayırlar.

Hacıyev Yusif Mehman oğlu 30 may 2011-ci ildə Mingəçevir şəhərində anadan olub. 2017-ci tədris ilində Laçın rayon 29 saylı tam orta məktəbinə yollanıb. Hal-hazırda adı gedən məktəbin 2-ci sinif şagirdidir. Hələ elmin, təhsilin qoynuna yenicə atılan Yusif oxumağa, öyrənməyə çox həvəslidir. İlk müəllimi Lətifə müəllimdir. Lətifə müəllimə Yusifi fəal olduğu üçün çox istəkli şagirdi hesab edir. Hələ bir qədər balaca olmağına baxmayaraq, çox yaxşı bilir ki, elm, təhsil insan üçün ən vacib bir əməldir. Yusif ona ana qayğısı göstərən Lətifə müəllimi, ingilis dili fənnini tədris edən Xatirə və informatika fənnini tədris edən Rəvanə müəllimi çox sevir. Müəllimlərinin verdiyi tapşırıqları sərbəst hazırlayan Yusif hər gün bir az da elmə, biliyə bağlanır. Valideynləri Yusiflə qürur duyurlar, elə Yusif də çalışır ki, onlara layiq oxuyub gələcəyin ziyalısı olsun. Ən çox sevdiyi Azərbaycan dili və həyat bilgisi fənləridir.

Böyüyəndə isə Polis Akademiyasına daxil olub və bu peşədə də çalışmaq istəyir. Arzu edir ki, gələcəkdə Vətəninin, xalqını keşiyini layiqincə durub və onu şərəflə qoruya bilsin. Elə valideynləri də Yusifin bu istəyinə, arzusuna hörmətlə yanaşırlar.

Yusif sinif yoldaşları ilə də çox mehribandır. Məktəbdə özünü nümunəvi aparır. Özündən zəif oxuyan sinif yoldaşlarına dərs zamanı köməklik edir, öyrəndiklərini onlarla paylaşır, onlara da öyrədir. Asudə zamanlarında rəsm çəkməyi çox xoşlayır. Gözəl şeir söyləməyi bacarır.

Atası Hacıyev Mehman Ələkbər oğlu, avtomobil ustasıdır. Anası Hacıyeva Nəzakət Yadigar qızı, satıcıdır. Özündən yaşca böyük qardaşı Tapdıq isə 11-ci sinifdə oxuyur.

Jurnalımızın kollektivi adından Yusifə dərslərində və gələcək həyatında uğurlar arzulayırıq! Qoy öyrəndiyi elmi biliklər və aldığı təhsil ona bir ömür yardımçı olsun.

# Türkan Məhərrəmova





**“Elm adamlarının qiymətini bilməyən, onlara layiq olduqları mükafatı verməyən ölkələr inkişaf edəcəklərinə ümid bəsləməsinlər”.**
**(Volter)**

Başqalarından daha uzağı görmək istəyirsənsə onda gərək həyata nəhənglərin çiynindən baxasan. Əks halda nə həyatı, nə də onun insan üçün ifadə etdiyi mənanı anlamayacaqsan. Həyatı anlamaq və dərk etmək özünüdərkdən başlayır ki, bu da insan övladının elm-təhsil yolundakı çabasından və əxz etdiklərindən asılıdır. Nə qədər bilsən, nə qədər öyrənsən, bir o qədərsən sən. Müdriklik tək özünü dərk deyil, həm də dünyanı və onun mövcudluğunun dərkinə xidmət edir. Təhsilin və biliyin insan həyatındakı danılmaz rolundan xəbərdar olan növbəti müsahibimiz Türkan Məhərrəmovadır. O artıq şagird həyatını uğurla adlayıb, tələbəlik həyatına qədəm basıb. Və ən yüksək bal göstəricisi ilə ali təhsil həyatını qazanıb. Savadlı və nümunəvi gənclərimizdən olan Türkanın tərcüməyi halı və həyat amalı ilə jurnalımızın bu yazısında tanış ola bilərik.

Türkan Afər qızı Məhərrəmova 2001-ci ildə Ucar rayonununda dünyaya göz açıb. Özü rayonda doğulsa da orta məktəbi rayonda oxumayıb. O, 2007-ci ilin tədris ilindən etibarən 43 saylı tam orta məktəbin birinci sinifinə gedərək ilk təhsil həyatına başlayıb. Orta məktəbi uğurla, böyük nailiyyətlərlə başa vuran Türkan həmişə sinifdə, məktəbdə savadı, dünyagörüşü və tərbiyəsi ilə seçilən nümunəvi şagirdlərdən olub. 11 illik orta təhsili uğurla başa vuran Türkanının ən böyük uğuru 2018-ci ildə 630 balla Azərbaycan Tibb Universitetinə qəbul olmasıdır. Bu uğuru və nailiyyəti ilə o, həm valideynlərini, həm də ona on bir il elm öyrədən müəllimlərini sevindirmiş və qürur bəxş etmişdir. Ümumiyyətlə həkimlik onun uşaqlıqdan sevərək qarşısına əsas məqsəd olaraq seçib qoyduğu sənət idi. Çünki onun təbiət və dəqiq elmlərinə qarşı xüsusi fitri istedadı və marağı vardı. Xüsusilə də Anatomiya, biologiya fənnlərini sevib və bu fənləri tədris edən Nəzakət və Akifə müəllimi daha çox bəyənərək onlardan öyrənib. Amma Türkan üçün ona dərs deyən, elm öyrədən bütün müəllimlər müqəddəsdir. Hamısının xətri və hörməti əzizdir. Elə bu minvalla onları yaxşı mənimsəyib öz sevib seçdiyi sənətinə qovuşub. Halhazırda tibb universitetinin 1-ci kurs tələbəsidir. Çalışır ki, dərslərinə və universitet həyatına tam uyğunlaşsın və orda da aktivliyi ilə seçilsin. Onun dərsləri ilə yanaşı çox maraqlı məşğuliyyəti var ki, bu da məhz elmi araşdırmalarla bağlıdır. Müxtəlif elm sahələrinə dair məlumatlar, materiallar toplayır.

Ona hər zaman arxa -dayaq olan ailəsi 4 nəfərdən ibarətdir. Canı qədər çox istədiyi atası Məhərrəmov Afər Məmmədhüseyn oğlu 1971-ci ildə Cəbrayıl rayonun Mərrə kəndində anadan olub. Bakı Dəmir Yolu Nəqliyyatı Texnikumunu bitirib. Anası Əliyeva Hicran Tahir qızı 1980-ci ildə anadan olmuş və evdar qadındır. Qardaşı Məhərrəmov Azər Afər oğlu 2014-cü ildə Ucar rayonunda anadan olmuşdur. Hazırda Sumqayıt 43 saylı tam orta məktəbin 9-cu sinif şagirdidir.

Elmin-yüksək təhsilin insan həyatında müstəsna əhəmiyyətini dərk edən Türkana jurnalımız adından həyat yolunda, təhsil həyatında uğurlar və böyük nailiyyətlər arzulayırıq. Orta məktəbi bitirdiyi kimi ali təhsilini də fərqlənmə ilə bitirib vicdanlı və peşəkar həkim olub cəmiyyətə, xalqına faydalı şəxs olsun. Uğur daim səninlə olsun!



# TAHİR TARVERDİYEV






**Qüvvət elmdədir, başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz.**
**Hər uca rütbədən biliniz, fəqət,**
**Alimin rütbəsi ucadır əlbət.**
***(Nizami Gəncəvi)***

Elmi nəticələr insanlar və nəsillər tərəfindən mənimsənildə biliyə çevrilir. Bilik zaman və məkandan asılı olmayaraq bəşəriyyətin tarix boyu topladığı haqq və gerçəkliklərin toplumudur. Elmi nəticələr zaman keçdikcə kütləviləşəndə biliyə çevrilir. Bu biliyə və savada bizlər məktəbə getməklə yiyələnirik. Şagirdlərə öz vətəninin tarixini, keçmişini, onun tarixi şəxsiyyətlərini tanıdan, məktəbə başladığı ilk gündən sonadək şagirdlərin yanında olan məhz müəllimlərdir. Onlar şagirdlərin təlim-tərbiyəsində, bilikli və savadlı bir gənc kimi yetişməsində mühüm rol oynayırlar.

Həmsöhbətimiz Tarverdiyev Tahir Rahim oğlu 2007-ci ildə 12 may tarixində Sabirabad rayonu Nizami kəndində dünyaya göz açıb. Bu ağıllı bala 2014 -cü ildə ilk dəfə olaraq Nəsimi kənd tam orta məktəbinə başlayıb. İndi də elə həmin məktəbin 5-ci sinifində təhsilini davam etdirir. Məktəbə başladığı ilk günlərdən fəallığı ilə seçilən Tahir riyaziyyat və Azərbaycan dili fənnini daha həvəslə oxuduğunu deyir. Ona dərs deyən müəllimlərin zəhmətkeş olduğunu, şagirdlərin daim qayğısına qaldığlarını vurğuladı. Arzu müəllim və Yetər müəllimi çox sevdiyini, tapşırıqları vaxtında yerinə yetirdiyini bildirdi. Tahir daha əvvəl zirvə kursundan rayon üzrə 2-ci yerə layiq görülüb. O, gələcəkdə Tibb fakültəsinin tələbəsi olmaq arzusundadır. Daha sonra isə ixtisaslı həkim kimi fəaliyyət göstərib, xalqına qarşı məsuliyyətli bir həkim olmaq istəyir. Həkim olmaq üçün çox çalışmaq və oxumaq vacibdir. Həkim insanların həyatını xilas edən onlara ən çətin anlarda kömək edən əlləri şəfalı olan bir peşə adamlarıdır. Həkim mütəxəssis olmaq üçün Tahir boş zamanlarında kitab oxuyur və daim mütaliə edir.

Tahirin ailəsi 4 nəfərdən ibarətdir. Tahir atasının çox zəhmətkeş olduğunu anasının isə çox qayğıkeş olduğunu söylədi. Atası Tarverdiyev Tahir Rahim oğlu su təsərrüfatında işləyir. Anası Tarverdiyeva Elnurə İzzağa qızı müəllimdir. Onlar Tahiri gələcəkdə savadlı bir həkim olaraq görmək istədiklərini deyir. Tahirin onunla eyni sinifdə oxuyan Ömər Tarverdiyev adında bir qardaşı var və onlar bir-birlərinə dərslərində daim köməklik göstərirlər.

Biz də jurnalımız adından Tahirə gələcəkdə həkim mütəxəssis olmağını və dərslərində bol uğur qazanmağı arzulayırıq.

# ÖMƏR TARVERDİYEV





**"Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər"**

***(Frensis Beko)***

Elm dərkdən başqa bir şey deyildir. O, ancaq xoşxasiyyətli insanların əlində olanda xeyir verə bilər. Müasir tələblərə cavab verən metodiki vasitələr şagirdlərin daha da mükəmməl biliklərə yiyələnməsində birbaşa onların köməkçisinə çevrilir. Hal-hazırda orta məktəblərdə fəaliyyət göstərən fənn müəllimləri yüksək ixtisaslı kadrlardan təşkil olunub və onlar bütün pedaqoji bilik, bacarıqlarını şagirdlərə sərf edirlər. Bundan başqa şagirdlərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında bir çox müxtəlif tədbirlər həyata keçirilir. Azərbaycanın milli qəhrəmanlarına həsr olunmuş tədbirlər təşkil olunur. Xüsusilə vətənpərvərlik ruhunda təşkil olunmuş tədbirlər şagirdlərdə vətənə qarşı sevginin daha da artırmasına səbəb olur.

Ömər Tarverdiyev 2008- ci il 10 iyun tarixində Sabirabad rayonunda anadan olub. Ömər 2014-cü ildə Sabirabad rayon Nəsimi kənd tam orta məktəbinə daxil olub. Bu məktəbin 5-ci sinifində təhsil alan Ömər dərslərinə məsuliyyətli bir şəkildə yanaşır. Ən çox sevdiyi fənnin riyaziyyat və Azərbaycan dili olduğunu deyən bu ağıllı bala, Arzu müəllim və Yetər müəlliminin adını da xüsusilə vurğuladı. Dərslərinə daim hazır olan Ömər məktəbi əla qiymətlərlə bitirmək istəyir. Ömər zirvə kurslarında iştirak edərək 3-cü yerə layiq görülmüşdür. O, çalışır ki, hər zaman sevdiklərinin və müəllimlərinin başını uca etsin... Onun ən böyük arzusu gələcəkdə polis peşəsinə yiyələnməkdir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Onlar daim Azərbaycanın xalqının və dövlətinin keşiyindədir.

Polisin vəzifəsi, borcu həm dövlətin mənafeyini, həm də hər bir vətəndaşın hüquqlarını qorumaqdır. Ömər də, elə bu peşənin önəmi anlayır və çalışır ki, o da gələcəkdə vətəninə, xalqına layiqincə xidmət edə bilsin, vicdanlı polis olsun. Asudə vaxtlarını kitab oxuyaraq və sevdiyi dostları ilə birgə futbol oynayaraq keçirir.

Onun mehriban ailəsi var ki, ailə üzvləri 4 nəfərdən ibarətdir. Atası Tarverdiyev Rahim Tahir oğlu su təsərrüfatında işləyir. Anası Tarverdiyeva Elnurə İrzağa qızı zəhmətkeş müəllimdir. Hər bir valideyn kimi onların da arzuları gələcəkdə övladlarını savadlı bir gənc kimi görməkdir. Ömərin Tahir adlı bir qardaşı var. Onlar daim dərslərində bir-birinə kömək edir, birgə elm oxuyurlar.

Kollektivimiz adından bu ağıllı balaya dərslərində nailiyyətlər və uğurlu gələcək diləyirik. Oxumaq və öyrənmək heç vaxt gec deyil, odur ki, qoy Ömər vaxtında öyrəndiyi biliklərlə parlaq bir gələcəyə nail olsun.



# Zamiq Quluyev





**"Dünyanı istəyən elmə sarılsın, axirəti istəyən yenə elmə sarılsın"**

***(Məhəmməd Peyğəmbər s. ə. s)***

Həyatımızda on bir illik tədris ili çox önəmli əhəmiyyət fakt daşıyır və bütün ömrümüzü, taleyimizi həll edir desək yanılmaram. Əgər bu illəri oxumayıb boşa xərcləsək onda itirilən təhsil illəri ilə bütün ömrümüzü itirmiş sayılırıq. Ona görə də hər bir şagirdin üzərinə bu baxımından böyük məsuliyyət düşür.

Hər bir şagirdin vəzifəsi məktəbə başladığı ilk gündən etibarən dərslərinə qarşı məsuliyyətli olmalıdır. Şagirdləri dərsə sövq edən isə valideynlər və müəllimlərdir. Deməк insanın yetişməsində ilk növbədə ailə, məktəb, müəllim faktoru əsas rol oynayır, özü də qarşılıqlı vəhdət halında.

Müəllim üçün ən vacib keyfiyyətlər humanizim və bu yer üzərində ən yüksək dəyər olan insana münasibətdir. Bu yer üzərində ən yüksək dəyər olan insana münasibət-dir. Bu münasibət konkret işlərdə və hərəkətlərdə öz ifadəsini tapır. Humanist münasibətlər şagirdin şəxsiyyətinə maraqdan, onun vəziyyətinə şərik olmaqdan, tələbkarıqdan, şəxsiyyətinin inkişafına qayğı göstərməkdən və elm öyrətməkdən ibarətdir.

Bu yazıda dərslərinə yaxşı çalışan və gələcəyini bugünki təhsilinin səviyyəsindən asılı olduğunu dərk edən Zamiq Quluyev haqqında bəhs edəcəyik.

Zamiq Quluyev Qalib oğlu 2007-ci il 13 noyabr Azərbaycanın şimal-qərb bölgəsində yerləşən Tovuz rayonunda dünyaya gəlib. O, 2014-cu ildə ilk dəfə olaraq, Ağdam 35 nömrəli tam orta məktəbə yollanıb. Zamiq indi elə həmin məktəbin 5c sinifində təhsil alır. Fəallığı ilə seçilən Zamiq riyaziyyat və Azərbaycan dili fənlərini çox sevdiyini qeyd edir. Sevdiyi müəllimlərin də adını çəkən Zamiq Reyhan, Röya və Pərvin adlı müəllimlərinin daim ona dəstək olduğunu və bu müəllimləri çox sevdiyini də əlavə edib. Zamiq dərslərinə diqqət edir. Bunun nəticəsidir ki, o müxtəlif fənn imtahanında 2 dəfə 3-cü yeri layiq görülüb. Savadlı sagirdimiz daha yaxşı nəticələr göstərmək üçün, daim oxuyur və çalışır. Zamiqin arzuladığı peşə isə pilot olmaqdır. Pilot olmaq üçün çox çalışmaq lazımdır. İlk növbədə insanın psixoloji sağlam olması lazımdır. Pilot, xüsusi və ya professional olaraq bir hava nəqliyyat vasitəsini istifadə edən, sövq və idarə edən adamdır. Lazımlı testlər, savadlı olmaq və müəyyən müddət sonucunda qazanılmış təcrübə pilot olmağa haqq qazanmaq mümkündür.

Boş zamanlarında şeir oxumağı, kitab oxumağı sevdiyini əlavə edib.

Zamiqin ailəsi 3 nəfərdən ibarətdir. Atası Quluyev Qalib, anası isə Quluyev Hicrandır. O, evdar xanımdır. Onlar övladlarına güvəndiklərini, gələcəkdə savadlı, bilikli bir gənc olmasını arzu edirlər. Zamiq də üzərinə düşən vəzifələri yerinə gətirəcəyini və daha çox çalışacağını bildirib.

Biz də öz növbəmizdə bu ağıllı balaya dərslərində uğur və gələcəkdə peşəkar bir pilot olmağını arzu edirik.

# VƏFA RƏHİMOVA





**”Kitabları yandırmaqdan da pis cinayət, məsələn, onları oxumamaq”**

***(Rey Bredberi)***

Təhsil insan ruhunun qidasıdır. Hər bir millətin tərəqqisi və başlıca amili elm və düzgün əxlaqdır. Tərbiyə də, ancaq elmin gücü ilə mümkündür. Insanlar təhsil üçün yox təhsil insanları maariflәndirmək üçündür deyib böyüklərimiz. Hər bir kəs yalnız elmin gücü ilə ucala bilər. Arzu və xəyallarımızı gerçəkləşdirmənin yollarından biri də elmin ətəyindən bərk yapışmaqdır

Təhsili yüksək səviyyədə almaq uğurlara imza atmaq deməkdir. Nizamlı və ciddi bir sistemi, dəqiq və planlı şəkildə dərslərə davamiyyəti ilə yüksək peşəkarlıq nümunəsi ola bilər. Hərtərəfli dünyagörüşə malik olmaq, yüksək potensiallı bir şəxsiyyət olmaq üçün təhsilli olmaq vacib faktlardan biridir. Elə buna əsaslanaraq jurnalımızın qəhrəmanı Vəfa Rəhimova da elmə üstünlük verir.

Rəhimova Vəfa Azad qızı 6 fevral 2005-ci ildə Ağsu rayonunda dünyaya göz açıb. 2011-ci il tədris ilində 71 saylı tam orta məktəbin ibtidai sinifinə yollanıb. Hal-hazırda sözü gedən məktəbin 8d sinfinin əlaçı şagirdlərindən biridir. Hələ ibtidai sinifdən təhsili ən önəmli fakt bilən Vəfa indi də eyni fikirdədir. Düşünür ki, öz gələcəyini elmə, təhsilə söykəyib, elinə, obasına fayda versin. Böyüdükcə daha da başa düşür, anlayır ki, elm, bilik hər bir insana gərəklidir. Dərslərinə məsuliyyətlə yanaşan Vəfa daim səy göstərərək istədiyi məqama çatmaq istəyir. Bu çalışqan və əlaçı qız məktəbin bir çox tədbirlərində çıxışlar edir. Gözəl natiqlik bacarığına malik olan Vəfa demək olar ki, məktəbdə keçirilən hər bir əlamətdar günün fəal iştirakçısıdır. Vəfa dərslərinə göstərdiyi diqqətin nəticəsində bütün müəllimlərinin gözündə ucalıb və yaxşı oxuduğu üçün bir neçə dəfə “Fəxri Fərman”la təltif olunub. Hər bir dərsə məsuliyyətlə yanaşan Vəfa gələcəyin həkimi olmaq arzusu ilə yaşayır.

Demək olar ki, sevmədiyi bir fənn yoxdur. Elə bu fənləri tədris edən müəllimləri də Vəfa üçün çox əzizdir, sevimlidir. Sevimli bildiyi Hafizə Həsənova, Aliyə Abdullayeva, Güllü Həsənova, İradə Rüstəmova və Aybəniz müəllimə Vəfaya dərs deyən müəllimləridir ki, onların sayəsində gələcəkdə ali mərtəbəyə yüksəlmək şansı var.

Vəfa boş oturmağı sevmir. Asudə saatlarında özünə maraqlı olan kitablar oxuyur, çoxlu mütaliə edir. Elə ailəsinin də ən böyük aruzusu da onun parlaq bir gələcəyə sahib olmasıdır.

Ailədə 5 nəfərdirlər. Atası Rəhimov Azad dənizçidir, anası Rəhimova Gülbəniz, evdar xanımdır. Bacısı Fidan Rəhimova 10-cu sinifdə, qardaşı Rəhimli Fərid isə 1-ci sinifdə oxuyur.

Biz də ”Çağdaş Təhsil” jurnalı adından Vəfaya uğurlar arzulayırıq. Arzu edirik ki, əldə etdiyin və edəcəyin biliklər sayəsində parlaq bir gələcəyə və uğurlu bir karyeraya sahib olsun. Uğurların bol olsun, gələcəyin həkimi!



# VƏLİZADƏ İLQARƏ




**”Yazıçılar ölməmişdən öncə minlərlə həyatı yaşayırlar. Kitab oxumayan insanlar isə yalnız bir həyatı yaşayırlar”.**

**(D. Martin)**

Təhsil yeni həyatın daha düzgün desək, parlaq həyatın başlanğıcıdır. Bu başlanğıc məktəbdə daha da artır və davam edir. Şagirdlərin məktəb həyatının daha maraqlı olması üçün bir sıra tədbirlər həyata keçirilir. Bu tədbirlər nəticəsində həm bacarıqlı şagirdlərin istedadları üzə çıxır, həm də şagirdlər bu tədbirlərdə yaxından iştirak edir. Xüsusilə vətənpərvərlik ruhunda təşkil olunmuş tədbirlər şagirdlərdə vətənə qarşı sevginin daha da artırmasına səbəb olur. İlqarə Vəlizadə adlı çalışqan şagirdimiz də jurnalımızın seçilərək səhifəsinə öz adını yazdıran seçmə şagirdlərdəndir.

Vəlizadə İlqarə Ehtiyac qızı 2009 cü il 1 yanvar tarixində Biləsuvar rayonunun Ağayrı kəndində anadan olub. İlqarə 2016-ci ildə Biləsuvar rayon Vüqar Rüstəmov adına tam orta məktəbinə daxil olub. Bu məktəbin 3a sinifində təhsil alan İlqarə dərslərinə məsuliyyətli bir şəkildə yanaşır. Ən çox sevdiyi fənnin riyaziyyat olduğunu deyən bu ağıllı bala, Əlisa və Dünyamin adlı müəllimlərinin adını da xüsusilə vurğulayaraq onlara bir başqa sevgisinin, rəğbətinin olduğunu qeyd edib. Dərslərinə daim hazır olan İlqarə məktəbi əla qiymətlərlə bitirmək istəyir. Onun ən böyük arzusu gələcəkdə polis olmaqdır. Bunun üçün isə hüquq üzrə ali təhsil alıb peşəkar bir kadr kimi bu sahədə yetişməkdir. Azərbaycan polisi Azərbaycan xalqının və dövlətinin keşiyindədir. Polisin vəzifəsi, borcu həm dövlətin mənafeyini, həm də hər bir vətəndaşın hüquqlarını qorumaqdır. İlqarə də elə bu peşənin önəmini anlayır və çalışır ki, o da gələcəkdə vətəninə, xalqına layiqincə xidmət edə bilsin.

Asudə vaxtlarını kitab oxuyaraq və anasına kömək edərək qiymətləndirir. Onun fikrincə vaxtı oxumağa sərf etmək daha faydalıdır. Elə ailəsi də bunu istəyir, ondan bunu tələb edirlər.

Ailədə 4 nəfərdirlər. Atası Vəlizadə Ehtiyac Bulutxanoğludur. 1984 cü il tarixində Yardımlının Əngövül kəndində doğulub. Kənd təsərrüfatında çalışır. Halal zəhməti ilə ailəsini dolandırır. Anası Nuriyeva İnci xanım övladlarına qarşı həddən artıq həssas və diqqətcildir. Atasını və anasını çox sevən İlqarə, onların çox zəhmətkeş və qayğıkeş olduğunu bildirib. Onlar övladlarını daim dəstəklədiklərini bildirib. Bacısı Nərminlə eyni sinifdə təhsil alan İlqarə hər zaman dərslərində bir-birilərinə yaxından köməklik göstərdiklərini və birgə öyrəndiklərini bildiriblər.

Kollektivimiz adından bu ağıllı balaya dərslərində nailiyyətlər və uğurlu gələcək diləyirik. Qoy öyrəndiyi istənilən bilik ona yardımçı və kömək olsun.

# VƏLİZADƏ NƏRMİN





**”Elm yolu bumeranqı xatırladır, nə qədər uzağa getsə də, yenə ilkin əsaslara qayıdırsan”**

**(Tur Xander)**

Elmə, biliyə yiyələnmək və onun tədris etmək tarix boyu şərəfli iş hesab olunub. Əbəs yerə dinimiz İslamda da elmə yiyələnmək allaha ibadət qədər əhəmiyyətli hesab olunmayıb. Bu haqda Məhəmməd Peyğəmbərin (s. a. s), onun səhabələrinin bir çox hikmətli sözləri, hədisləri vardır.

Belə ki, Hz. Əli “ Mənə bir hərf öyrədənin köləsi olaram” -demişdi. Elm öyrənmək nə qədər vacib və əhəmiyyətli bir iş hesab olunursa da, elm öyrətmək ondan da şərəfli və gözəl iş hesab olunur. Bu şərəfli və çətin peşə sahibləri də müəllimlərdir. Onların sayəsində bizlər elm - təhsil həyatından agah olub, izi ilə gedirik. Elmsiz -biliksiz indiki zamanda yaşamaq çətin olduğu üçün daim oxumaq və öyrənmək həyat amalına çevrilməlidir şagirdlərin. Ölkəmizin gəncləri də bunu əsas meyar götürüb durmadan çalışmalı və parlaq gələcəyə sahib olmaq üçün əllərindən gələni etməlidirlər. Elm öyrənməyin vacibliyini bilən və bunun üçün də hər daim çalışan nümunəvi şagirdlərdən biri də Vəlizadə Nərmin Ehtiyac qızıdır.

Vəlizadə Nərmin Ehtiyac qızı 2010-cu ilin 29 dekabr tarixində Biləsuvar rayonunun Ağayrı kəndində dünyaya göz açıb. Ağıllı və çalışqan Nərmin 2016-ci ildə Biləsuvar rayon Vüqar Rüstəmov adına tam orta məktəbinin 1-ci sinfinə gedib. Hazırda həmin məktəbin 3a sinifində təhsilini davam etdirir. Məktəbə başladığı ilk günlərdən fəallığı ilə seçilən Nərmin, riyaziyyat fənnini daha həvəslə oxuduğunu deyir. Ona dərs deyən müəllimlərin zəhmətkeş olduğunu, şagirdlərin daim qayğısına qaldığlarını vurğuladı. Əlisa və Dünyamın müəllimlərini çox sevdiyini, onların verdiyi ev tapşırıqlarını vaxtında yerinə yetirdiyini bildirdi. Nərminin indidən gələcəyi ilə bağlı qətiləşdirdiyi arzuları var. O, məktəbi əla qiymətlərlə bitirib, tibb fakültəsinin tələbəsi olmaq arzusundadır. Daha sonra isə həkim kimi fəaliyyət göstərib, xalqına peşəkar bir həkim kimi xidmət etmək istədiyini deyir. Çünki peşəkar və ixtisaslı həkimlərə səhiyyəmizin böyük ehtiyacı var. Bu vəzifəyə layiq olmaq üçün çox çalışmaq və oxumaq vacibdir. Həkim olmaq insanların həyatını xilas etmək deməkdir. Yaxşı həkim olmaq üçün o boş zamanlarında kitab oxuyur, eyni zamanda anasına ev işlərində kömək edir. Onun ailəsi də Nərminin sənət seçimi dəstəkləyir və indidən onu həkim kimi görürlər.

Ailəsi 4 nəfərdən ibarətdir. Atası Vəlizadə Ehtiyac Bulutxanoğludur. 1984 cü il tarixində Yardımlının Əngövül kəndində doğulub. Kənd təsərrüfatında çalışır. Halal zəhməti ilə ailəsini dolandırır. Anası Nuriyeva İnci xanım övladlarına qarşı həddən artıq həssas və diqqətcildir. Onlar Nərmini gələcəkdə savadlı bir həkim olaraq görmək istədiklərini dedi. Bacısı İlqarə onunla eyni sinifdə oxuyur və onlar bir-birlərinə dərslərində daim kömək edirlər.

Biz də jurnalımız adından Nərminə gələcəkdə peşəkar həkim olmağını və həyatda bol uğur qazanmağı arzulayırıq. Uğurları və yaxşı kürsülərdən eşidilən səsi ilə müəllim və valideynləri qürur hissi duysun, fəxr etsin.

# SELNUR MƏMMƏDOV









**“Elmdə irəli gedib mənəviyyatda geridə qalan insan son nəticədə irəli yox, geriyə gedir”**

**(Aristotel)**

Bilənlərlə bilməyənlər heç vaxt eyni olmaz. Yalnız ağıl sahibləri həyatdan ibrət alır və öyrənir. Öyrəndiklərini isə zamanla bilməyənlərə öyrədir. Yəni öyrənmək bir məharətdirsə, öyrətmək aqil şəxsin əməlidir. Hər kəs insan ola bilər, amma aqil ola bilərmi? Xeyr sualın cavabı birmənalıdır. Aqil və arif insan ömrünü oxumaqla, öyrənməklə, nəticə çıxartmaq və ibrət götürməklə keçinən şəxsdir. Elm və təhsil almaq da insanı müdrükləşdirir, aqilləşdirir. Ona görə insan övladı elmi beşikdən qəbrədək öyrənmək məcburiyyətindədir.

İstənilən sahədə bir addım daha irəli getmək, digər insanlardan fərqli olmaq, edilən işin müsbət yöndə nəticəsini görmək - bunları uğur, müvəffəqiyyət, nailiyyət adlandırsaq, yəqin ki, yanılmarıq. Elmdə də, idmanda da uğur qazananlar daha güclü və iradəlilər, başqalarından mübarizə əzmi, savadı ilə seçilənlərdir. Gələcək həyatını oxuyaraq idman sahəsinə bağlamaq istəyən jurnal müsahiblərimizdən biri də çalışqan Selnur Məmmədovdur.

Məmmədov Selnur İnşallah oğlu 28 sentyabr 2006-cı ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Çərçiboğan kəndində dünyaya gəlib. 2012-ci ildə Həsən Cəbrayılov adına 99 saylı tam orta məktəbin 1-ci sinfinə yollanıb. Hazırda elə həmin məktəbin 7 c sinif şagirdidir.

Sorağında olduğumuz qabaqcıl, fəal, bacarıqlı şagirdlərin sırasında Selnur da özünə jurnalda yer tapdı. Belə ki, onu yaxından tanıdıq və bildik ki, bu çalışqan oğlan həm yaxşı oxuyur, həm də idmanla aktiv məşğul olur.

Selnurun ilk müəllimi Həqiqət Məmmədova olub. O, ilk müəlliməsinin onun üzərində əməyinin az olmadığını qeyd etdi. Ümumiyyətlə, müəllim adını əziz tutan Selnurun keçmiş və indiki müəllimlərinə böyük rəğbəti var. Ən əziz, sevimli müəllimi ona tarix fənnini tədris edən Azər Əliyev və fiziki tərbiyə dərsini tədris edən Larisa müəllimdir.

Selnur böyüyəndə ən məhşur idmançı olmaq arzusundadır. Elə buna görə də o idmanla aktiv məşğul olmağa qərar verib. Hələ 1-ci sinifdə oxuyarkən valideynləri onu idmana aparıblar. Müəyyən səbəblərdən Selnur idmana bir müddət fasilə verməli olub. Lakin bu istək onu yenidən bu peşəyə sövq edib. Artıq 3-cü ildir ki, Selnur idmanın taekvondo növü ilə davamlı məşğul olur. Bu müddət ərzində bir neçə dəfə uğurlara imza atmağa nail olan Selnur bunun davam edəcəyinə əmindir. Selnur 21 oktyabr 2017-ci ildə Hədəf Taekvondo Klubunun “Yoldaşlıq Görüşü” adlı yarışda 44 kq çəki dərəcəsində iştirak edərək I yerə layiq görülərək “Diplomla”, Quba rayonunda keçirilən “Ümid Kuboku Beynəlxalq Taekvondo Turnirində” 44 kq çəki dərəcəsində iştirak edərək ”Seltfikat”la, 2018-ci il 31 mart və 1 aprel tarixlərində 31 Mart Azərbaycan Soyqırımının Qurbanları Xatirəsinin 100-cü İldönümünə Həsr olunmuş Taekvando Növü Üzrə Göygöl Rayon Açıq Birinciliyi Oğlanlar arasında 40 kq çəki dərəcəsində III yerə layiq görülərək “Diplom”la, 2018-ci ilin avqust ayında “Hədəf Olimpiya Taekvando Klubunun Açıq Birinciliyi” nə həsr olunmuş yarışda III yerə layiq görülərək “Diploma” və medallarla təltif olunub. Taekvondo idman növü ilə məşğul olan Selnur artıq “Sarı kəmər”, “Sarı-Yaşıl kəmər”, “Yaşıl-göy kəmər”lərin sahibidir. Gələcəkdə bu göstəricini “Qara kəmər”ə qədər çatdırmaq istəyir.

Əldə etdiyi nailiyyətlərində birbaşa ona bu elmin sirrini öyrədən və əməyi keçən Zülfüqarov Səbuhi və Aydınov Samir adlı müəllimlərinə xüsusi təşəkkürünü də bildirdi. Qeyd etdi ki, gələcək yarışlarda müəllimlərinin etimadını daha da doğrultdacaqdır. Axı elə bu müəllimlərinin əməyi nəticəsində o, artıq Milli Qəhrəmanımızın adını daşıyan “Mübariz” yığma komandasının üzvüdür.

Selnur düşünür ki, növbəti yarışlarda iştirakı ilə Azərbaycanımızı dünya arenasında təmsil edərək bayrağımızı uca zirvələrdə dalğalandırsın.

Asudə zamanlarında maraqlı kitablar oxuyur, maraqlı televiziya verilişlərini izləyir və dostları ilə futbol oynamağı çox xoşlayır.

Ailəsi 4 nəfərdən ibarətdir. Atası Məmmədov İnşallah, orta təhsillidir, şəxsi bizneslə məşğul olur. Anası Məmmədova Çinar evdar xanımdır. Özündən yaşca böyük olan bacısı Məmmədova Nursel isə 11-ci sinif şagirdidir.

“Çağdaş Təhsil” jurnalının kollektivi adından Selnura dərslərində və idman həyatında müvəffəqiyyətlər arzulayırıq. Uğurları axarlı, canı sağlam və ömür yolu parlaq olsun!

# QURBANZADƏ TURANƏ



**”Əgər mən başqalarından daha uzaqları görə bilmişəmsə, onda bu yalnız nəhənglərin çiyinlərində durduğuma görə mümkün olmuşdur”**

***(İsaak Nyuton)***

Azərbaycan təhsilinin qədim tarixi və zəngin ənənələri var. Təhsil sahəsində həyata keçirilən müasir yeniliklər bu sahədə çalışan insanların həyata baxışlarında da yenilik duyğularını artırmışdır. Artıq respublikasının təhsil sistemi sivil qaydada formalaşır. Bu gün də hər bir təhsil ocağının qarşında duran ən mühüm məsələ yüksək ixtisasa malik mütəxəssislər yetişdirmək, əsl vətəndaşın formalaşmasıdır. Elmə, savada öz həyatımızda hər zaman geniş yer verməliyik. Bütün elmlərin təməli təhsillə qoyulur. Elm təşkilatlanmış bilikdir. Həmçinin biliyi, savadı olan insanın gözəl əxlaqı da olur. 21-ci əsr də bunu tələb edir ki, zamanın nəbzin tutub onun tələbinə uyğun inkişaf edəsən.

Jurnalımızın növbəti qəhrəmanı, haqqında bəhs edəcəyimiz uğurlu şagirdlərdən biri Qurbanzadə Turanə də təhsilə həyatında mühüm yer verən şagirdidi. Qurbanzadə Turanə Niyaməddin qızı 2004-cü ildə 22 iyul tarixində Biləsuvar rayonu Ağayrı kəndində dünyaya göz açıb. Turanə 2010- cu ildə Vaqif Rüstəmov adına Ağayrı tam orta məktəbində təhsil almağa başlayıb. Hal-hazırda o, elə həmin məktəbin 9-cu sinif şagirdidir. Bacarıqlı və çalışqan olan bu gözəl qız riyaziyyat fənnini və İntizar müəllimini çox sevdiyini deyir. O, bütün müəllimlərinin savadlı, peşakar olduğunu və işlərini sevərək yerinə yetirdiklərini deyib. Sınaq imtahanlarında təltif edilən Turanə, gələcəkdə Tibb fakültəsinin tələbəsi olmağı arzulayır. O, bilir ki, həkimlik çətin bir o qədər də məsuliyyətli peşədir. Həkim hər zaman öz həyatını, vaxtını, əyləncəsini, digərlərin həyatlarının daha sağlam olması uğrunda fəda edir. Bu çox təbiidir, çünki həkimin borcu xəstəyə şəfa tapmaqdır. Buna görə də, o ilk növbədə dərslərinə yaxşı hazırlaşıb, peşakar mütəxəssis olmağa çalışır.

Turanə boş zamanlarını isə, kitab oxuyaraq dəyərləndirir. O, tez-tez mütaliə edir ki, bildikləri yadından çıxmasın və dünyagörüşü zəngin olsun.

Ailədə 5 nəfərdirlər. Atası Niyaməddin bəy fərdi təsərrüfatçıdır. Anası Ramilə Abıyeva isə evdar qadındır. Onlar övladlarına daim dəstək durduqlarını deyir. Turanənin hal-hazırda məktəbli olan Neslihan adında bacısı və Hərbi Akademiyada oxuyan Qoşqar adına qardaşı var. O, sonda əlavə etdi ki, daim dərslərində uğur və müvəffəqiyyət qazanmaq üçün nə lazımdırsa edəcək.

Dərslərində çalışqan və bacarıqlı olan Turanəyə müvəffəqiyyətlər diləyirik. Uğurların bol, xoş sədalarının eşidilməsini arzu edirik. Öyrəndiyin elm hər zaman yolunda yaşıl işıq kimi yansın.



# SƏMİD QƏDİROV





**”Elm ağlın, idman sağlamlığın rəhmidir. İkisi bir arada insanı şəxsiyyət, uğurlu və sağlam edəcək əsas faktorlardır”**

Elm insan həyatının sevərək seçdiyi sahələrdən, peşəsindən asılı olmayaraq əsas ilham mənbəyi, istinad etdiyi əsas mənbə olmalıdır. Səbəbsiz deyil ki, hər bir vətəndaş məcburi orta məktəb təhsil almalı və onbirillik təhsil həyatını uğurla başa vurmalıdır ki, sonradan hansı sahəyə gedərsə orda uğurlu və seçilənlərdən olsun. Yəni elm, təhsil vacibdir. Amma elmlə yanaşı insanın uğur əldə edəcəyi bir çox sahələr var ki, onlardan biri də idmandır.

Araşdırmalara görə idmanın insana həm fizioloji, həm də psixoloji faydası var. İdmanla məşğul olmaq insanın sağlamlığında böyük rolu olduğu kimi, yaşadığı həyatda da özünə uyğun yer tapmasında yardımçı vasitədir. Elə buna görə də son illər gənclərimiz idmana daha çox maraq göstərir, onun müxtəlif növlərində müəyyən uğurlar, yüksək göstəricilər, nailiyyətlər əldə edir. Belə gənclərimizdən biri də Səmiddir.

Qədirov Səmid Sərvər oğlu, 7 dekabr 2001-ci ildə Sabirabad rayonunun Yaxa-Dəllək kəndində anadan olub. Hazırda 11 -ci sinifdə oxuyan Səmid 2008-ci ildə Yaxa-Dəllək kənd tam orta məktəbinə gedib. Dərslərini orta qiymətlərlə oxuyur. İlk müəllimi Aygün Cahangirova olub. 5-ci sinifdən isə Nəsibə müəlliminin rəhbərlik etdiyi sinfin şagirdidir. Səmid ona dərs deyən bütün müəllimlərə münasibətinin çox gözəl olduğunu bildirdi. Qeyd etdi ki, müəllimlərinin ona çəkdiyi zəhməti yüksək dəyərləndirir. Hazırda ona dərs deyən Aygün, Bəhruz və Zöhrab Səmidin ən sevdiyi müəllimləridir.

Səmid 8 yaşından idmanla məşğul olur. Onun idmana maraq göstərməsində məqsədi gələcəkdə həyatını idmana bağlamaqdır. Artıq 9 ildir ki, Səmid davamlı şəkildə idmanın boks növü ilə məşğul olur. Demək olar ki, bu illər ərzində dəfələrlə yarışlara qatılaraq yüksək nəticələr əldə edə bilib. Belə ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Sosial İnkişaf idarəsi “Neftçi” İdman Sağlamlıq mərkəzinin 2 oktyabr 2010-cu ildə təşkil etdiyi yeniyetmələr arasında Boks üzrə “Neftçi” İSM-nin açıq birinciliyində 28 kq çəki dərəcəsində 1-ci yer tutduğuna görə, Şirvan şəhər Gənclər və İdman idarəsinin 21-22 aprel 2012-ci il tarixində təşkil etdiyi yeniyetmələr arasında Boks idman növü üzrə “Açıq şəhər” birinciliyində 1-ci yer tutduğuna görə, 4 may 2016-cı ildə Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibəti ilə yeniyetmələr arasında boks üzrə Açıq rayon birinciliyində 42 kq çəki dərəcəsində 3-cü yeri tutduğuna görə, Cəliləbad rayon Gənclər və İdman İdarəsi Cəliləbad rayon Uşaq və Gənclər İdman Məktəbinin 4 iyin 2016-cı il tarixində 2000-2001-ci il təvəllüdlü yeniyetmələr arasında Boks idman növü üzrə keçirilən “UGİM” birinciliyində 48 kq çəki dərəcəsində 1-ci yerə çıxdığı üçün, 4 mart 2017-ci ildə “Bədən tərbiyəsi və İdman günü”nə həsr edilmiş rayon birinciliyində 1-ci yerə layiq olduğuna görə “Diplom”larla təltif olunmuşdur. Qeyd edək ki, Səmid 22 fevral 2016-cı ildə Bakı şəhərində keçirilən yarışların birində 48kq cəki dərəcəsində yüksək məharət göstərərək “Qızıl medal”la da təltif olunub.

Səmid bu qədər uğurlarına görə Nadir, Terman və Cəmşid müəllimə xüsusi təşəkkürünü bildirdi. Qeyd etdi ki, Nadir məşqçi müəlliminin əməyi sayəsində bu qədər nailiyyətləri əldə edib, mükafatlara layiq görülüb. Elə ailəsi də bu fikirdədir, onunla qürur duyur və uğurlarının davamlı olmasını diləyir.

Səmidin atası Sərvər, anası Aidə xanım övladlarının idmançı olması və bu uğurları ilə fəxr edirlər. Arzu edirlər ki, övladları nəinki ölkəmizdə, o cümlədən dünyanın hər bir yerində yarışlara qatılıb, vətənimizi təmsil edərək bayrağımızı yüksəklərdə dalğalandırsın. Qardaşları Səid və Həmid onun uğurlarına sevinir və Səmidlə qürur duyurlar.

Biz də jurnalımızın adından Səmidə uğurlar diləyirik. Əminik ki, o gələcəyin ən yaxşı boksçusu olaraq ölkəmizi layiqincə dünya arenasında tanıdacaq. Ömür yolu parlaq, nailiyyətləri bol olsun!

# QƏDİROV SƏİD





**"Elmlər insan ruhunun gözünü təmizləyir və yenidən açır. Ruhun gözü min dənə adi gözdən önəmlidir. Çünki ancaq onun köməyi ilə həqiqəti görmək mümkündür"**

**(Platon)**

Elm, irfan, bilik. Bunların həyatımızda əvəzsiz əhəmiyyəti var. İnsanın həyatda bioloji rolundan başqa mənəvi rolu da var. Mənəviyyatı olmayan insanın nə özünə, nə də cəmiyyətə faydası olmaz. Məhz elm insana mənəvi zənginlik gətirir, onu kamilləşdirir. Təsadüfi deyil ki, atalarımız da "Elm mərtəbəsi uca olar" deyiblər. Bu mərtəbənin aliliyi ordadır ki, bizi cəhlət quyusundan çıxarıb çox yüksəklərə ucaldır. Məhz bunun sayəsində insan həyatda öz mənliyini tapır. Cahil insan heç vaxt nə özünə, nə də ətrafına fayda verə bilməz. Əksinə, o öz cahilliyi ilə ətrafındakılara da zərər verər. Hər kəsi öz cəhalət quyusuna çəkər. Kamil olanlar ona inanmaz, elmə biliyə yönələr.

Allahın yaratdığı canlı varlıqlardan ən şüurlusu insandır. Elə ona görə də insanın bacarmadığı heç nə yoxdur. İnsan dərin düşüncəsinin nəticəsində istənilən mərhələyə çata bilər. Bəzən yaşadığı bir ömrü hədər yerə xərcləyən insanlar da var ki, onlar tarixdə heç bir iz buraxmadan dünyadan köçürlər. Əksər hallarda isə bir çox insanlar öz bilik və bacarığı sayəsində müəyyən zirvələri fəth edir. Sizi tanış edəcəyimiz müsahibimiz də hələ azyaşlı olmasına baxmayaraq, yaşadığı həyatın səmərəli keçməsi üçün həyatını elmə, biliyə bağlamağı qərarlaşdırıb.

Qədirov Səid Sərvər oğlu, 12 oktyabr 2004-cü ildə Sabirabad rayonunun Yaxa-Dəllək kəndində anadan olub. 2011-ci ildə Əlif Xanlarov adına tam orta məktəbin 1-ci sinfinə yollanıb artıq 8-ci sinif şagirdidir.

Səid haqqında yazmağımızın səbəbi onun yaxşı oxumağı ilə bağlı oldu. Məlum oldu ki, Səid ibtidai sinifdən dərslərinə böyük həvəs göstərərək yüksək səviyyədə oxuya bilib. Səid həmişə çalışıb ki, dərslərində müsbət nəticələr əldə etsin. Ibtidai sinif müəllimi Əliyeva Xalidə müəllim olub. İlk müəlliminə böyük sevgisi və sayğısı var. Hələ körpəlikdən oxumağa, yazmağa, öyrənməyə çox maraqlıdır. Məqsədi isə gələcəkdə ali təhsil alaraq istədiyi məqama, sənətə çatmaqdır.

Səid gələcəkdə Hərbi Akademiyaya daxil olmaq arzusundadır. Bu səbəbdən də indidən dərslərinə daha ciddi yanaşır. Səidin dərslərə belə münasibəti müəllimlərinin də sevincinə səbəb olur. Axı hər bir müəllim istəyir ki, şagirdi yaxşı oxuyub ali dərəcəyə yüksəlsin, məktəbin fəxri olsun. Bu fəxr, ad müəllim üçün ən böyük tövfədir. Səid məktəbdə keçirilən tədbirlərdə fəal iştirak edir. Bu fəal şagird müəllimləri tərəfində sevilir. Sinif rəhbəri və riyaziyyat fənnini tədris edən Təranə müəllim, kimya fənnini tədris edən Aygün müəllim, tarix fənnini tədris edən Aynur müəllim, ingilis dilini tədris edən Vəfa müəllim Səidin ən sevimli müəllimləridir. 2019-cu ilin yanvar ayının 25 -də məktəbdə Aygün müəlliminin rəhbərliyi ilə təşkil olunan "Kimya gecəsi"ndə Səid də yüksək səviyyədə iştirak edərək öz biliyin yoxlayıb.

Səid idmanla da məşğuldur. İdmanın boks növü ilə məşqlərə gedən Səid yarışlarda iştirak edərək müəyyən mərhələlərə çatıb. 18-19 oktyabr 2014-cü ildə yeniyetmələr arasında Boks idman növü üzrə şəhər birinciliyində 44 kq çəki dərəcəsində 1-ci yerə çıxaraq "Diploma", 2016-cı il 1 və 2 oktyabr tarixində 2003-2005 təvəllüdlü yeniyetmələr arasında 42 kq çəki dərəcəsində şəhər birinciliyində iştirak edərək 3-cü yerə və "Diploma", 6-7 may 2017-ci il tarixlərində Ümummilli H. Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş boks üzrə Neftçala UGİM-nin açıq birinciliyində 42 kq çəki dərəcəsində fərqləndiyi üçün "Diploma", 22 oktyabr 2017-ci il tarixində Sabirabad rayonunda keçirilən boks üzrə açıq birinciliyində 44 kq çəki dərəcəsi ilə 1-ci yerə çıxaraq "Diploma" və 15 dekabr 2018-ci ildə Ağsu, Şirvan və Neftçala şəhərinin yeniyetmə boksçuları arasında keçirilən yoxlama döyüşlərində 60 kq çəki dərəcəsində 1-ci yer tutduğu üçün yenə də "Diploma" layiq görülüb. Uğurlarına görə isə Nadir və Terman adlı müəllimlərinə borclu olduğunu və jurnalımız vasitəsi ilə müəllimlərinə təşəkkürünü də bildirdi.

Səid həm orta məktəb dərslərinə, həm idmana elə elə düzgün zaman ayırır ki, hər birində öndə gedə bilir, seçilərək nümunəvi şagird ola bilir. Asudə zamanlarında həm sağlamlığı, həm dincəlmək üçün velosiped sürür. Bu ona xüsusi zövq verən əyləncələrdən biridir. Ailəsi də Səidlə qürur duyur və onun gələcəyini parlaq görmək istəyirlər.

Ailəsi 5 nəfərdən ibarətdirlər. Atası Qədirov Sərvər tikintidə usta işləyir. Anası Qədirova Aidə evdar xanımdır. Özündən yaşca böyük 2 qardaşı var. Böyük qardaşı Həmid hərbi xidmətdədir, ortancıl qardaşı Səmid isə 11-ci sinif şagirdidir.

Biz də Səidə dərslərində və idmanda uğurlar arzulayırıq. Gələcəkdə sevərək məşğul olduğu və seçəcəyi sahədə uğurlu olmasını diləyirik. Qoy bütün uğurları ilə daim müəllim və valideynlərinin fəxri, sevinci olsun.



# RƏHMANLI NURİDƏ







**"Elmdə heç bir ideya ehkam deyil; hər bir adam ən məşhur alimin ən çox yayılmış ideyasını da istənilən vaxt yenidən yoxlamaq səlahiyyətinə malikdir"**

***(Əbu Turxan)***

Yaşamağa bir dəfə gəldiyimiz bu həyatın insan üçün əsas məqsədi özünüdərk, özünü kəşfdir. Amma özünü kəşf edə bilməyən insan bu həyatı yaşasa da onun əsas qayəsindən, əsas hədəfindən xəbərsiz olacaq. Biz insanlar bu dünyaya qidalanmaq üçün deyil, yaşamaq üçün gəlmişik. Elm təşkilatlanmış bilikdir. Bu biliyi hissə-hissə mənimsəyib həyatını tam başa vurmalısan. Elm dəryasında bir damla olmaq hər insan üçün bir fəxarət ola bilər, nəinki cahil olub ömrünü boşa verməklə öyünmək. Elm təbiət kitabını oxuyur və öyrəndiklərini təbiətin öz üzərində sınaqdan keçirir. İnsan da elmi öyrəndikcə təbiəti və onunla necə rəftar qaydasını öyrənmiş olur. Amma insanın öyrəndiyi və bildiyi gerçəklər bilmədiyinin müqabilində bir heç nədir.

Təhsil və bilik insanın həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir.

Bir sözlə, elm və bilik insanın həyatını mənalandıran, onu zənginləşdirən işıqlı bir yoldur. Odur ki, həyat və güzəranımızı daha mənalı etmək, səmərəli yaşamaq üçün daha çox təhsilə, savada yiyələnməliyik. Elə müsahibimiz Nuridə də bizimlə eyni fikirdədir.

Rəhmanlı Nuridə Arzu qızı 18 mart 2006-cı ildə Bakı şəhərində anadan olub. 2012-ci ildə 1-ci sinifə yollanan Nuridə hal-hazırda 99 saylı tam orta məktəbin 7-ci sinif şagirdidir.

Nuridə ibtidai sinifdən çox fəal və zirək qızdır. Bir çox potensiala malik olan Nuridə müəllimləri və sinif yoldaşları tərəfindən çox sevilir. Nuridə əlaçıdır. Bütün fənlərə böyük marağı var. İlk dəfə Nuridəyə yazmağı, oxumağı Həqiqət müəllimə öyrədib. Nuridə Həqiqət müəlliməsini çox sevib. Hələ ibtidai sinifdə oxuyarkən daim dərslərə tam hazır gələrək Həqiqət müəlliməsinin hörmətini qazana bilmişdir.

Hal-hazırda sinif rəhbəri Rəfiqə Qulamovadır. Rəfiqə müəllim Azərbaycan dili fənnini tədris edir. Nuridə hal-hazırda ona dərs deyən müəllimləri tərəfindən də sevilir. Elə Nuridə də müəllimləri arasında fərq qoymur. Ona dərs deyən bütün müəllimləri sevir və onlara böyük məhəbbəti vardır. Ən çox maraq göstərdiyi isə fizika, biologiya, və kimya fənləridir. Yəni əsasən təbiət elmlərinə marağı vardır. Nuridə məktəbdə keçirilən tədbirlərdə də çox fəal iştirak edir. O, çox gözəl natiqlik bacarığına malikdir. Bədii-qiraəti yüksək səviyyədə olduğu üçün məktəbdə əlamətdar günlərdə keçirilən tədbirlərdə şeir söyləyir, aktiv iştirak edir. O həm də rəsm çəkməyi də bacarır. Asudə zamanlarında rəsm çəkməklə yanaşı, kitab oxuyur, qorxulu filmlər izləyir.

Ümumiyyətlə, Nuridə bir neçə dəfə məktəbdənkənar müsabiqələrdə də iştirak edərək məktəbinə uğurlarla qayıda bilib. Ümumlider Heydər Əliyevin 94-cü ildönümünə həsr olunmuş "Ədəbiyyat" gecəsində çıxış edərək "Diploma" və Azərbaycan Diabet Liqası tərəfindən təşkil olunmuş "Diabet nəzarətdə, uğur irəlidə!" adlı diabetli uşaqlar arasında keçirilən ilk müsabiqədə uğurlu iştirakına görə "Sertifikat"la təltif olunub.

Bəli oldu ki, Nuridə bacarıqlı olması ilə yanaşı həmçinin də iradəli qızdır. Nuridə gələcəkdə sənaye mütəxəssisi olmaq arzusundadır. O, arzu edir ki, gələcəyin ən yaxşı neft mühəndisi olsun və ölkəsi aqrar ölkədən olmaqdan çıxıb dünyanın inkişaf etmiş ölkələri kimi sənayə ölkəsi olsun. Onun da bu istiqamətdə ölkəsi naminə oxuyaraq öz xidmətləri olsun. Elə ailəsi də bu istedadlı qızları ilə qürur duyaraq ona uğurlar arzulayır.

Ailəsi 6 nəfərdən ibarətdirlər. Atası Rəhman Arzu ali təhsilli mühəndisdir, bankda çalışır. Anası Rəhman Gülnaz orta ixtisas təhsilli, evdar xanımdır. Nənəsi Musayeva Nahidə ali təhsilli təqaüddə olan müəllimdir. İndiyə qədər yüzlərlə tələbəsi olub. Ziyalı bir xanımdır. Böyük bacısı Rəhman Nahidə və kiçik bacısı Rəhmanlı Səidə Nuridənin hər bir uğuruna sevinir və daim ona dəstək olurlar.

Biz də kollektivimiz adından belə bacarıqlı, özünə tələbkar olan Nuridəyə uğurlar diləyirik! Qoy uğurları ilə onu sevənləri daim sevindirsin və parlaq bir ömürə şahidlik etsin.

# NÜRAYƏ ŞAHVERƏNLİ









Hədəfə gedən yol çox zaman təhsildən keçir. Hansı peşəyə yiyələnməyin bir o qədər də önəmi yoxdur, önəmli olan peşəyə hansı səviyyədə yiyələnməkdədir.

Təhsil insanın gələcək peşəsinin, cəmiyyətdəki yerini təmin edən ən mühüm şərtlərdən biridir. Müsahibimiz Nurayə də öz hədəfini orta məktəbdən seçib.

Şahverənli Nurayə Nəcəf qızı 20 noyabr 2007-ci ildə Biləsuvar rayonunun Günəşli kəndində anadan olub. 2014-cü ildə Biləsuvar rayonu İsmətli kənd tam orta məktəbinin 1-ci sinfinə yollanan Nurayə artıq 5-ci sinif şagirdidir. Məktəbə qədəm basdığı gündən əlindən tutub elmə gedən yolda ilk bələdçisi Ülviyyə Nərimanova olub. Nurayə ilk müəlliməsinin hər bir tapşırığını yerinə yetirməyi ilə daim ən yaxşı şagird adını almışdır. İbtidai sinfi yenicə bitirən Nurayə artıq bir qədər də böyüyüb. Artıq məsuliyyətləri də bir o qədər artıb. İndi onun əlindən tutub yazmağı öyrətmirlər, o, artıq özü sərbəst dərslərini hazırlayır, mənimsəyir. Ona dərs deyən müəllimləri də Nurayədən çox razıdırlar. Elə Nurayədə müəllimlərini özünə ən yaxın bilir və onların zəhmətini dərslərini yaxşı oxuyaraq dəyərləndirir.

Hazırda sinif rəhbəri, həm də fiziki tərbiyə fənnini tədris edən Əfqan Məmmədov, riyaziyyat fənnini tədris edən Bəyoğlan Cahangirov, Azərbaycan dili və Ədəbiyyat fənn müəllimi Fəridə Cəbrayılova və ingilis dilini tədris edən Güldanə müəllim Nurayənin hörmət bəslədiyi müəllimləridirlər.

Nurayə gələcəkdə həkim olmaq arzusundadır. O, ginekoloq olmaq istəyir və qadın həkimi olaraq cəmiyyətimizin qadınlarına və onları narahat edən problemlərə, xəstəliklərə öz köməyini göstərmək, öz tövfəsini vermək istəyir. Bilir ki, həkimlik çox çətin və məsuliyyətli peşədir. Ona görə də dərslərinə daha ciddi yanaşır.

Nurayə şeir yazmağı da bacarır. Bir neçə şeirlərini jurnalımızda dərc olunmasını da istədi. Biz də Nurayənin istəyini nəzərə alaraq onun bir neçə şerini oxuculara təqdim edirik.

**QARABAĞIM!**

**Qarabağımı aldılar,**
**Gözlərimdən yaş axdı.**
**Qətlə yetirdilər,**
**Buməsum insanları!**
**Bizdən ayrı saldılar,**
**Yaralı Qarabağı.**
**Ancaq igid əsgərlər**
**Alacaq Qarabağı!**

**ATAM**

**Biri var ki, sevirəm,**
**Onsuz yaşaya bilmərəm**
**Uzaqlaşsa yanımdan,**
**İnan, onsuz ölərəm.**
**O da məni çox sevir,**
**Bilirəm yaxşı onu.**
**Siz bilməyirsiniz kimdir,**
**Mənim gözəl atamı.**

**ANAM MƏNİM**

**Nə vaxt mən səni görsəm,**
**Sevinirəm, gülürəm.**
**Sevinib mən o saat**
**Göylərə ucalıram**
**Anam, anam, ay anam!**

**O, hər gün saçlarımı**
**Darayır, tumarlayır.**
**"Yaxşısanmı, ay qızım",**
**Deyib hər gün nazlayır.**
**Anam, anam, ay anam!**

Bundan başqa Nurayə "Kəpənəklər", "Payız gəlir", "Ey gözəl Yurdum mənim" adlı şerlərinin də müəllifidir.

Ümumiyyətlə, Nurayə mütaliə etməyi, bədii kitablar oxumağı, şeir yazmağı özünə məşğuliyyət edib və bundan o, böyük zövq alır.

Evin yeganə qız övladı valideynlərinin göznuru hesab olunur. Atası Şahverənov Nəcəf, anası Cəbrayılova Tərgül xanım qızları ilə qürur duyurlar. Qardaşları Namiq və Qadir də bacıları Nurayəni çox sevirlər. Ümid edirlər ki, Nurayə gələcəkdə də uğurlu və seçilən şəxslərdən biri olacaq, istədadı ilə özünə layiqli yer tutacaq.

Jurnalımızın kollektivi olaraq balaca şairə Nurayəyə müvəffəqiyyətlər arzulayır və ömür yolunun parlaq olmasını diləyirik. Ümid edirik ki, onun parlaq istedadı, öyrənərək mənimsədikləri cəmiyyətdə öz layiqli yerini tutmağa Nurayəyə yardımcı olar.



# ORUCZADƏ ARZU





**"Ləzzətlə yemədiyin yemək usandırıcı olduğu kimi, həvəslə məşğul olmadığın elm də hafizəni korlayır, o udduğunu mənimsəmək iqtidarında olmur"**

***(Leonardo Da Vinçi)***

Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini birbirinin ardınca kəşf edir. İnsan yalnız elmi, təhsili, hərtərəfli dünyagörüşü ilə başqalarından fərqlənə bilər. Hər birimiz hər an yeni bir bilgi əldə etməyə çalışmalı, təhsilimizi, biliyimizi artırmalıyıq. Çünki, bilik və təhsil almadan heç nə əldə edə bilmərik. Məhşur Azərbaycan şairi N.Gəncəvi hələ 10 əsr bundan əvvəl elmin gücü haqqında deyirdi:

**Əmr etdi, verildi fərman,**
**Alimdir gözümdə ən əziz insan.**
**Elmlə, hünərlə! Başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz!**

Bugünkü müsahibimiz adı kimi özü də gözəl olan Arzu baladır. Arzu dekabrın 16- ı 2006-cı ildə Bakı şəhərində anadan olub. 2013-cü ildə orta məktəbə yollanan bu ağıllı bala hal -hazırda Qubadlı rayon 1 nömrəli tam orta məktəbinin 6a sinifində təhsilini uğurla davam etdirir. Məktəbə başladığı ilk günlərdən fəallığı ilə seçilən Arzu, artıq bir sıra sınaq imtahanlarından diplom qazanıb. Çalışqan və bacarıqlı olan Arzu riyaziyyat fənninə daha çox marağı olduğunu deyir. Əlbətdə ki, bu fənni ona sevdirən zəhmətkeş bir müəllimə var hansı ki, bu Vüsalə müəllimdir. O, müəlliminin ona ötürdüyü bilik və bacarıqlar sayəsində dəqiq elm olan riyaziyyatın bütün incəliklərinə dərindən bələd olur və ona qarşıdakı illərdə də bu elmin lazım olacağına əmindir. O, gələcəkdə həkim olmaq istəyir. Bu peşəyə sahib olmaq üçün Arzu çox çalışmalı və eyni zamanda çox oxumalıdır. Hər bir işin öz çətinliyi var, lakin bu iş həm də diqqət tələb edir. Biz əminik ki, Arzu gələcəkdə bu arzusunu mütləq reallaşdıracaq. Asudə zamanlarını kitab oxumaqla keçirən Arzu hər gün daha çox bilik əldə etmək istəyir.

Bu ailə 3 nəfərdən ibarətdir. Atası Orucov Camal Cəlil oğlu, bənna işləyir. Anası Rzayeva Sevda Hümbət qızı hərbi hissədə aşbaz kimi çalışır. Arzu bu evin tək qızı və atasının anasının gözəlidir. Hər kəs kimi onlar da Arzunun uğurlarının bol olmağını, gələcəkdə savadlı bir müəllimə olacağına ümid edirlər.

Jurnalımız adından Arzu balaya bol nailiyyət, dərslərində uğur diləyirik. Arzu edirik ki, gözəl bala savadlı bir həkim olmaq xəyalını böyüdüyü zaman gerçəkləşdirsin və hər kəsi, sevənlərini uğurları ilə sevindirsin.



# Həzrət Əzizli





**”Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir, ədəbi səadət verilmişdir”**

***“Qurani-Kərim”dən***

Dünyada minlərcə peşə və sənət mövcuddur. Bu müxtəliflikdə olmaq böyük sınaq və imtahandır. Hansını seçməli, həqiqətən də çox məsuliyyətli bir məsələdir. Hətta səbəbsiz yerə deyilməyib bu ifadə ki, insan iki seçim məsələsində ciddi olmalıdır. Birincisi həyat yoldaşı, ikincisi peşə, sənət seçimində. Əks halda səhv seçim hər iki həyati vacib məsələdə uçuruma doğru yol alıb, insan yanıltısına səbəb olar. Çünki ömür bir dəfə verildiyindən, həyat qısa olduğundan edilən səhvi düzəltmək vaxt və zaman alır. İtirilən cavan illəri də heç nə geri qaytarmır.

Tədris materialını qavramaq və anlamaq hələ onu tam mənimsəmək üçün kifayət deyil. Bundan ötrü əlavə addımlar atılır, tədris materialının şagirdlər tərəfindən əsaslı dərk olunması təşkil edilir. Bu məqsədlə müəllim şagirdlərin şüurunu hərəkətə gətirir, onları düşünməyə, fikir yürütməyə vadar edir. Onların diqqətini öyrənilən hadisələrdə və cisimlərdə səbəb-nəticə əlaqələrinə yönəldir. Təlimin bu mərhələsində uşaqlar müəllimin rəhbərliyi ilə müəyyən əqli nəticələr çıxarır, öz fikirlərinin doğruluğunu isbat etməyə meyl göstərirlər, onlarda əqidə ünsürləri yaranır, öyrəndikləri hadisələrə müəyyən mövqedən yanaşmağa başlayırlar.

Həzrət Əzizli Əziz oğlu 2007-ci il 1 sentyabr tarixində Biləsuvar rayonunda dünyaya gəlib. O, 2013-cu ildə Ağdam 35 nömrəli tam orta məktəbə yollanıb. Hal-hazırda Həzrət, həmin məktəbin 6b sinifində təhsil alır. O, bütün fənlərdən yüksək qiymət almağa çalışır... Müəllimlərinin tapşırıqlarını vaxtında yerinə yetirdiyini bildirib. Ən sevdiyi dərslər isə coğrafiya, biologiya, riyaziyyatdır. Həzrət bütün müəllimlərini çox sevir. Hər zaman onların tərifini qazanmaq üçün, daim daha yaxşı oxumağa çalışır. O, gələcəkdə xanəndə olmaq, Azərbaycan musiqisini dünyada tanımaq istəyir. Bu sahə üzrə də təhsil alır. Səsində məlahət olan bu bacarıqlı oğlan əmin addımlarla bu yolda irəliləyir. O, artıq bir sıra uğurla imza atıb. Hacı Xanməmmədova həsr olunmuş konsertdə diploma layiq görülüb. Bununla yanaşı, Gənclik gününə aid keçirilən müsabiqədə diplom qazanmışdır. Boş zamanlarında həm dərslərini hazırlayır, həm də musiqi sahəsində özünü irəliləDİR.

Bu ailədə 5 nəfər var. Atası Əzizov Əziz mühəndisdir. Anası Ağayeva Aytəkin isə ev qadınıdır. Hər bir valideyn kimi onlarda, övladlarının uğurlu bir gələcəyə sahib olmağını istəyir. Həzrətin, Fatimə adlı bir gözəl bacısı və Rauf adlı bir qardaşı var.

Biz də jurnalımız adından Həzrətə dərslərində nailiyyətlər və gələcəkdə səsi ilə hər kəsi valeh edəcək bir xanəndə olmağı arzu edirik.



# Məmmədova Elduzə



**”Savadlı adam mütaliə etmirsə təkrar savadsızlığa məhkumdur. İnsan gərək bütün ömrü boyu maariflənsin”**

**(A. V Lunaçevski)**

Ölkəmizdə gənc nəslin savadlı, intellektual səviyyəli yetişməsini naminə əməli tədbirlər həyata keçirilir. Hal-hazırda respublikamızın bütün orta məktəblərində yüksək ixtisaslı, peşəkar müəllim kollektivi fəaliyyət göstərir. Müəllimlər şagirdləri təhsilə, elmə sövq etmək üçün daim çalışır. Onlara xalq arasında böyük hörmət və ehtiram var və gələcəkdə də belə olacaq. Heç bir müasir təhsil texnologiyası müəllim əməyini əvəz edə bilməz. İnsan həyatı orta məktəb təhsilindən asılı olduğu üçün gərək ona təhsil verən məktəb müəllimləri, elm öyrədən pedaqoqlar işini dərindən dərk etsin və məsuliyyətini anlasın. Anlasın ki, onun bu gün dərs dediyi uşaqların gələcəyi həm də təhsilin keyfiyyətindən, yüksək göstəricisindən asılıdır. Elə jurnalımızın da qayəsi buna xidmət edir ki, elm-təhsil yolunda inamla addımlayan şagirdləri elmə-təhsilə olan marağı itməsin, əksinə daha da artsın. Elə bu fikirlə yola çıxan jurnalın növbət qəhrəmanı Məmmədova Elduzədir. Gəlin onu bu kiçik yazı ilə daha yaxından tanıyaq.

Məmmədova Elduzə Qurban qızı 2008-ci ildə 8 may tarixində Lənkəran rayonunda anadan olub. Bu ağıllı həmsöhbətim 2014 -cü ildə Ağdam 35 nömrəli tam orta məktəbinə qədəm qoyub. Elduzə hazırda həmin məktəbin 5a sinif şagirdidir. Dərslərinə olduqca diqqətlə yanaşan Elduzə deyib ki, riyaziyyat və ana dili fənlərini daha çox sevir. Ən çox sevdiyi və peşəkar müəllimlərinin adını çəkməyi unutmayan ağıllı bala Reyhan və Aybəniz adlı müəllimlərini çox istədiyini bildirib. Yaşının az olmasına baxmayaraq onun artıq bir sıra uğurları da var. Məktəb üzrə 3 -cü yerə layiq görülən Elduzə savadını daim artırmaq və oxumaqla gələcəkdə hüquq ixtisasında oxuyub işləyərək hakim olmaq istəyir. Çünki ədalət, haqq sisteminin sağlam olmasını istəyən Ulduzə çalışır ki, ədalətli hakim olub doğru qərarlar versin və cəmiyyətdə ədaləti pərba etsin. Seçdiyimiz peşədən asılı olmayaraq hər sahədə insan müəyyən savad və biliyə malik olmalıdır. Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyəti yalnız ədalət mühakiməsinin və qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhkəmə nəzarətinin həyata keçirilməsinə yönəldilmişdir. O da bu yolda ədalətli şəkildə, əmin addımlarla irəliləyəcəyinə ümid edir.

Asudə vaxtlarını rəsm çəkməyə sərf edən bu gözəl qız bununla yanaşı kitab oxuyur və dərslərini təkrar edir və təkrar biliyin anasıdır deyiminə haqq qazandırır. Onun gələcəyini parlaq görmək istəyən ailəsi Ulduzə ilə qüruru duyur və ona inanır.

Məmmədovalar ailəsi 4 nəfərdən ibarətdir. Atası Qurban bəy plastik qapı -pəncərə şirkətində işləyir və 34 yaşı var. Anasının isə 29 yaşı var, evdar xanımdır. Hər bir valideyn kimi onlar da Elduzənin gələcəyə uğurla və inamla addımlamasını istəyir və bütün arzularına çatmasını istəyirlər. Qardaşı Məmmədov Elgün 1-ci sinif şagirdidir. Elduzə qardaşına dərslərində kömək edir. O, sonda əlavə edib ki, ailəsini çox sevir və onların başını daim uca etmək istəyir.

Biz də öz redaksiyamız adından Elduzəyə istək və xəyalların həyata keçməsini, gələcəkdə xalqına xidmət edən, ədalətli bir hakim olmağını diləyirik.

# FATEH ƏLİYEV






**"Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz"**

**(Əbül Fərəc)**

Yer üzünün ən ali əşrəfi insan, insanın ən gözəl tərəfi isə onun ədəbi və mənimsədiyi bilgisidir. Elm və təhsil bir cəmiyyətin quruculuğunda, ölkənin idarəçiliyində rol oynayan əsas faktorlardan biridir. Təhsilsiz bir millətin gələcəyi qaranlıq göründüyü kimi, onun xilası da uzun zaman tələb edən çətin bir prosesdir. Hamımıza məlumdur ki, 21-ci əsr dünyamızın ən inkişaf etmiş ölkələri öz nüfuzlu adlarına görə yalnız elmə, keyfiyyətli təhsil sistemlərinə minnətdardırlar.

Müasir dövrümüz sivlizasiya dövrüdür. Bu dövrdə yüksək elmi səviyyəyə, dərin bilik tələb olunur. Onun üçün də müasir gənclərimizin təhsilə yiyələnməri vacib şərtlərdəndir. Təhsilin bünövrəsi məktəbdə qoyulur. Haqqında yazacağımız 4-cü sinif şagirdi Fateh də gələcəkdə ali təhsil almaq arzusundadır.

Əliyev Fateh Camal oğlu 7 iyul 2009-cu ildə Sabirabad rayonunun Narlıq kəndində anadan olub. 2014-cü ildə Sabirabad rayon Nəriman Nərimanov adına 2 saylı tam orta məktəbin 1-ci sinfinə yollanıb. O, artıq 4e sinif şagirdidir. Fateh rus bölməsində təhsil alır. Məktəbə gəldiyi ilk gündən Tamella müəlliminin etimadını doğrultmağa çalışan Fateh dərslərinə çox ciddi yanaşaraq yüksək nəticələr əldə etməyi bacarıb. Belə ki, Tamella müəlliminin tədris etdiyi bütün fənləri mənimsəməyə çalışan Fateh ən çox riyaziyyat elminə maraq göstərir. Fateh 14 iyun 2018-ci tədris ilini əla qiymətlərlə başa vurduğu üçün "Tərifnamə"ilə təltif olunub.

Böyüyəndə hərbçi ya da polis olmaq istəyir. Dövlət qulluqçusu olmağı arzulayan Fateh Yapon idman növü olan Karate Do ilə məşğul olur. Təlim aldığı zamanlarda uğurlar qazanaraq yüksək mərhələrə çıxa bilib. Belə ki, 19 avqust 2018-ci il tarixində Maştağa Olimpiya İdman Kompleksində Uşaqlar və Yeniyetmələrin Karatenin inkişafına Dəstək fondunda Klublar arasında Bakı Birinciliyində 33 kq çəki dərəcəsində III yer tutduğuna görə "Diplomla", Azərbaycan Bu Do Döyüş növləri Federasiyasının İmişli rayonunda keçirdiyi 2 fevral Gənclər Gününə həsr olunmuş uşaqlar və yeniyetmələr, gənclər və böyüklər arasında Bu Do Döyüş növləri üzrə XI açıq Azərbaycan birinciliyi və çempionatında 35 kq cəki dərəcəsində I yer tutduğuna görə "Diplomla", Birlik Karate Klubunun təşkil etdiyi "Klublar üzrə çempionatında" 9 yaş üzrə 35 kq çəki dərəcəsi ilə II yerə layiq görülərək "Diplom"la, Silahlı Qüvvələrin Yaranmasının 100 illiyinə həsr olunmuş karate üzrə yarışda 33 kq çəki dərəcəsi ilə III yerə nail olaraq yenə də "Diplom"la və buna bənzər yarışlarda müxtəlif medal və diplomlarla təltif olunub.

Ümumiyyətlə, Fatehin uğurları çoxdur. Oxucularımızı bu uğurların bir qismi ilə tanış edə bildik. Fatehin bu qədər uğur qazanmasında ona idmanın sirlərini öyrədən müəllimi Hamlet Qasımovun əməyi çox olub. Fateh jurnalımız vasitəsi ilə onun üzərində zəhməti olan müəllimlərinə və valideyinlərinə təşəkkürünü bildirdi.

Ailə üzvləri bu bacarıqlı oğlanla qürur duyurlar. Atası Əliyev Camal, anası Əliyeva Nuranə övladlarının gələcəyin ən məhşur idmançısı olacaqlarına əmindirlər. Onlar fərdi təsərrüfatda halal zəhmətlə çalışan sadə adamlardırlar və inanırlar ki, halal və gərgin əməyin sayəsində insan ucala bilər. Babası Cahangir və nənəsi Seyid Zəhra xanım nəvələrinin gələcəyinə ümidlə baxırlar. Bacısı Əliyeva Zəhra və qardaşı Əliyev Əli Fatehlə fəxr edir, ona dərslərində və idmanda nailiyyətlər arzulayırlar.

Bu bacarıqlı oğlana kollektivimiz adından biz də uğurlar diləyir və parlaq bir gələcək arzulayırıq. Qoy oxuduğu və öyrəndiyi elm, təhsil onun ömür yoluna çıraqban olsun.



# GÜLARƏ ƏSGƏROVA





**Bağlı bir qapıya açar axtarsan,**
**Ancaq alimlərdə axtar, taparsan.**
***(Nizami Gəncəvi)***

Alimlərin ruhu elm məbədində əbədi həyata qovuşar. Bəşəriyyəti xoşbəxtliyə, həqiqətə, ədalətə ancaq elm apara bilər kimi deyimlərdən də aydın görünür ki, elm böyük gücə malik qüvvədir. Elmsiz cəmiyyət gec-tez uçuruma doğru gedər və tarixi keçmişə qovuşar. Çünki cəmiyyətlər, ölkələr işləyən insan beyni əsasında idarə olunur və inkişaf etdirilir.

Dinimiz İslamda da elm öyrənmək, Allaha ibadət etməyə bərabərdir. Elm xəzinədir. Kim ki, evdən elm dalınca çıxır, o qayıdana qədər Allah yolundadır. Kim ki, elm dalınca gedir, Allah onun cənnət yolunu asanlaşdırır, mələklər onun qanadları altına alaraq, bu yoldakı bəlalardan qoruyur.

Kim ki, elmi körpəlikdən öyrənir, onu elm öyrənməyi daş üzərində yazı yazmağa oxşayır.

Elə bu balaca fidan bala Gülarə də elmə, biliyə, öyərənməyə cəhd hələ körpə yaşlarından başlamışdır.

Əsgərova Gülarə Əmirzadə qızı 28 noyabr 2009-cu ildə Bakı şəhərində anadan olub. 2016-cı ildə Səbail rayonunun 51 saylı tam orta məktəbinin 1-ci sinifinə qədəm qoyub. Əlindən tutub ilk dəfə "Ana", "Vətən" yazmağı öyrədən müəllimi Sevil Qafarova olub. Sevil Qafarova hazırda Gülarənin sinif rəhbəridir. Gülarə müəlliminin qabaqcıl şagirdlərindəndir. Oxuduğu 3 il ərzində daim əla qiymətlərlə müəllimlərini və valideynlərini sevindirib. Müəlliməsinin sevimli şagirdinin fotoşəkili məktəbin dəhlizindəki "Şərəf lövhəsi"ndə, məktəbin fəalları sırasında yerləşir. Çünki o, əlaçı və çox fəal, çalışqan şagirddir.

Məktəbdə keçirilən tədbirlərdə fəal iştirak edən Gülarə hamının sevimlisinə çevrilib. O, çox gözəl şeir söylədiyi üçün oxuduğu məktəbdə bütün müəllimlər və şagirdlər onu yaxşı tanıyır. Elə buna görə də hər dəfə tədbirlərdə iştirak edir. Gülarə yaxşı oxumağı ilə yanaşı ağıllı, nümunəvi, tərbiyəli bir qızdır. Çalışqan, mehriban, səmimi Gülarə daim belə fəal olacağına söz verib. Axı o böyüyəndə həkim olmaq istəyir. Həkim olmaq üçün çox çalışmalı, yaxşı oxumalı olduğunu yaxşı dərk edir. Elə valideynləri də onun bu istəyini dəstəkliyirlər. Övladlarının gələcəkdə həkim olacağına inanırlar. Gülarə həm də çalışır ki, valideynlərinin, müəllimlərinin və ona yaxın olan hər kəsin etimadını doğrulda bilsin.

Çox az bir müddət ərzində rəqslə məşğul olsa da, gözəl rəqs etmə bacarığı var. Gələcəkdə yenə də rəqslə məşğul olmaq istəyi var, yenidən onu püxtələşdirmək istəyir.

Asuda zamanlarda maraqlı nağıllar oxuyur, rəqs edir, dərslərini mütalıə edir.

Ailədə 5 nəfərdirlər. Atası Əsgərov Əmirzadə Fəxrəddin oğlu "Cahan Holdinq"də satış təmsilçisi vəzifəsində çalışır. Anası Əsgərova Aksana evdar xanımdır. Özündən yaşca kiçik bacısı Fəridə 4, qardaşı Uğur isə 2 yaşındadır.

Biz də jurnalımızın vasitəsi ilə Gülarəyə uğur və nailiyyətlərinin bol olmasını arzu edirik. İnanırıq ki, gələcəyin ən yaxşı həkimi olaraq cəmiyyətə öz layiqli tövfəsini verəcək.

# AYSEL MƏMMƏDLİ





**"Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz"**

*(Əbül Fərəc)*

Öyrəndiyin elmi digərlərinə öyrətmək böyük xeyirxahlıqdır. Bundan faydalananlar və qiymətləndirənlər sənə təşəkkür edərlər. Elmsiz və biliksiz insanın könlü bar verməyən ağaca bənzər. İnsan elm və biliklə nemət yaradaraq ömrünü dəyərləndirər. Elmsiz insan bir ömürü bada vermiş insandır. Çünki elmsiz-bilgisiz keçən ömür insanı cahil edər və cahil insan da dünyada ən təhlükəli varlıqdır. Təhsil biz insanları cəhalətdən xilas edir, gələcəyimizin daha parlaq və gözəl olmasına şərait yaradır. Bu səbəbdən də, hər kəs təhsil almağın önəmi anlamalıdır. Jurnalımızın növbəti yazısının qəhrəmanı Aysel Məmmədlidir.

Aysel Məmmədli Arzu qızı 2007-ci il sentyabr ayının 1-i Sabirabad rayonu Cavad kəndində dünyaya göz açıb. 2014-cu ildə məktəbə başlayan Aysel hal-hazırda Sabirabad rayonu Teymur Məmmədov adına 1 saylı tam orta məktəbin 5 -ci sinif şagirdidir. Müəllimlərinin və sinif yoldaşlarının sevimlisi olan bu gözəl qız bir çox fənləri çox sevdiyini deyir. Həvəskar olduğu fənlər isə riyaziyyat və təsviri incəsənətdir. O, çox sevdiyi müəllimlərinin adının çəkməyi də unutmadı. Gülnarə və Elşad müəllimlərinin onun üzərində böyük zəhməti olduğunu vurğuladı. Ayselin gələcəyinə dair arzu və xəyalları kiçik deyil. O, gələcək həyat yolunu müqəddəs müəllimlik peşəsi ilə bağlamağı qərarlaşdırıb. Qəlbində belə bir istəyin baş qaldırmasına səbəb isə, sevimli müəllimlərinin prototipi olmuşdur ki, müəllimlik illərlə insanlara aşılanan və öz təsdiqini tapan ən şərəfli və müqəddəs peşədir. Ancaq gərək vicdanlı və savadlı, öz ixtisasını dərindən mənimsəyib öyrəndiklərini öyrətməyə, ötürməyə meyilli olasan. Aysel də bu istedad və bacarığı özündə gördüyündən indidən bu peşəni özünə sənət olaraq seçməyi tərcih edir, qətiləşdirir.

Sevimli müəllimlərimiz bizə şifahi xalq yaradıcılığının, dastanlarımızın ruhunu aşılayıblar, eləcə də yazılı ədəbiyyatımızın görkəmli nümayəndələrinin - Nizaminin, Füzulinin, M. Ə. Sabirin, S. Vurğunun, C. Məmmədquluzadənin, H. Cavidin əsərlərinin incəliklərini öyrədiblər. Onların gəncliyə aşıladığı, hikmətli həyat bilgilərini, maarifləndirici ideologiyanı aşılayıblar ki, Aysel də deyir ki, bu ideologiyanın təsiri ilə o da bu sənətə aşiq olub və ömrünü elmtəhsil sahəsinə həsr etməyi düşünür.

O boş zamanlarını kitab oxuyaraq, mütaliə edərək dəyərləndirir. Çox sayda kitab oxumaq, daha çox bilik və savad əldə etmək deməkdir ki, Aysel də buna görə mütaliəni daha çox edir və ciddi oxucu kimi oxuduqlarını həm də tətbiq etmək əzmindədir. Məhz bu səbəbdən də, o daha yaxşı müəllim olmaq üçün indidən çalışır.

Onun mehriban ailəsi var ki, ailə üzvləri, valideynləri daim Ayseli dəstəkləyir və onun gələcəyinin parlaq olması üçün əllərindən gələni etməyə çalışırlar. Ailəsi 5 nəfərdən ibarətdir. Atası Arzu Məmmədov kənd təsərrüfatında çalışır, anası Məmmədova Gülər, evdar, zəhmətkeş xanımdır. Hər iki valideyn övladlarını gələcəkdə uğurlu bir gənc kimi görmək istəyir. Ayselin Azər adlı bir qardaşı, Aysu adlı bir gözəl bacısı var. Aysu hal-hazırda məktəbdə təhsil alır.

Biz də jurnalımızın heyyəti adından ona davam edən orta təhsilində uğurlar və gələcək həyatında qarşısına qoyduğu bütün məqsədlərə öz gücü iradə və bacarığı ilə çatmağı diləyirik. Hədəfin gələcəyindir, gələcəyinin uğurlu olması diləyi ilə!



# FİDAN NƏSİBOVA





**"Yaxşı kitablar oxumaq keçmiş əsrlərin ağıllı adamaları ilə söhbət etmək deməkdir"**

**(R. Dekart)**

Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlayır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğura nail olmaq mümkündür. Məhz buna görə də, hər bir şəxs daim axtarışda olmalı, yeni bilik və savada yiyələnməlidir. Bu zaman onlara kömək edən müəllimlər olur. Onların köməyi ilə şagirdlər bir çox məsələləri müqayisə, təhlil və ümumiləşdirməyə başlayır. Bu səbəbdən də, şagirdlərin bilik və bacarıqları intensiv şəkildə formalaşır. Şagirdlər öz bacarıqlarını işə salırlar, bilik ehtiyyatından vəziyyətin tələb etdiyi bilikləri seçib istifadə edirlər. Mənimsəmənin bu mərhələsində formalaşan yeni bilik şagirdin malik olduğu biliklərə qovuşur. Təhsilə önəm versək həm özümüzə həmçinin, ölkəmizə faydamız olacaq. Elə juranlımızla çalışırıq bu qayəyə xidmət edək. Növbəti yazı qəhrəmanımız Fidan Nəsibovadır.

Fidan Nəsibova Marvil qızı 2007-ci ildə 28 aprel tarixində Gürcüstanda anadan olub. Fidan 2014-cü ildən etibarən Bakıda 35 nömrəli tam orta məktəbin 5b sinifində təhsil alır. Dərslərinə məsuliyyətli və daim hazır olan Fidan ana dili və riyaziyyat fənninə marağı xüsusidir. Türkan müəlliminin onun üzərində əziyyətinin daha böyük olduğunu bildirib və qeyd edib ki, hər bir müəllimini çox sevir. Milli rəqslərimizə marağı olan Fidan gələcəkdə rəqqasə olmaq arzusundadır. Milli musiqimizin dünyaya səs saldığı bir zamanda gələcəkdə Fidan da bu sahədə uğurlu ola bilər. Azərbaycan xalq rəqsləri tariximizlə ayrılmaz surətdə bağlı olub, onun milli xüsusiyyətini, həm də həyat və məişətini özündə əks etdirir. Bu da ölkənin tarixində, mədəniyyətində rəqs sənətinin nə dərəcədə böyük əhəmiyyətə malik olduğunu göstərir. Bununla yanaşı onun gələcək də həkim olmaq arzusu da var. Hər iki peşə əmək və zəhmət tələb edir. Əsas odur ki, o işini sevərək yerinə yetirsin.

Asudə vaxtlarında mütaliəni sevdiyindən kitab oxuyur, informasiya toplayır və eyni zamanda anasına kömək edir.

Atası Marvil bəy işləyir, anası Təhnürə xanım isə evdar qadındır. Onlar övladına daim güvənir və gələcəkdə onu savadlı və ixtisaslı bir gənc kimi görmək istəyirlər. Fidanın 8 yaşında Samar Nəsibov və 8-ci sinifdə təhsil alan Tərxan Nəsibov adında iki qardaşı var. Onlar dərslərində bir-birinə kömək olur, bacılarına da öz kömək və məsləhətlərini əsirgəmirlər.

Biz də redaksiyamız adından bu gözəl balaya dərslərində uğur və nailiyyətlər arzulayırıq. Qoy əldə edəcəyi bütün uğurları ilə müəllim və valideynlərini sevindirsin.

# Dövlətov Əmrah





**“İnsanlar uzun müddət misi qızıla çevirmək arzusunda olublar. İndi elm misi elə şeylərə çevirir ki, qızıl ona həsəd aparır”**
**(Tur Xander)**

Müasir dövr insanını sivilizasiyanın inkişaf istiqaməti, elmi səviyyə və dərin bilik maraqlandırır. Onun üçün də hər gələcək özü ilə gələcək həyata uyğunlaşması üçün yüksək təhsilə yiyələnməlidir. Tərbiyənin özülü ailədə qoyulduğu kimi, təhsilin də təməli məktəbdə qoyulur. Təməl bilgisi zəif olan insanın sonrakı yaşam meyarında bu çatışmazlıq özünü mütləq göstərir.

Gənc nəslin tərbiyəsi yaşadığı mühitlə, ünsiyyətdə olduğu insanlarla, təlim-tərbiyə aldığı pedaqoji kollektiv, ən vacibi isə böyüyüb başa çatdığı ailəsi ilə sıx bağlıdır. Məktəb millətin müdriklik ocağı, xalqın mənəvi beşiyidir. Məktəb millətin bu günü, sabahı və gələcəyidir. Məktəbdə bizə təkcə oxumaq yox, həm də bizə yaşamağı, yaratmağı, vətəni sevməyi öyrədirlər.

Hər bir insanın həyatında məktəb illəri böyük rol oynayır. On bir ilimizi ikinci evimiz olan məktəbdə keçiririk, orda öyrənirik. Elmsiz insan çıraqsız evə bənzədiyi kimi, onu ucaldan da, yolunu işıqlandıran da məhz elm, təhsildir. Öyrənməyə həvəs göstərən və bu yolda əmin addımlarla irəliləyən gənclərimizdən biri də Əmrah Dövlətovdur.

Müsahibimiz Dövlətov Əmrah Ziyafət oğlu 2003-cu il 23 fevral tarixində Bakı şəhəri, Suraxanı qəsəbəsində anadan olub. Əmrah ilk dəfə olaraq 2014-cü ildə Ağdam rayon 35 saylı tam orta məktəbinə başlayıb. O, indi həmin məktəbin 5a sinifində təhsilini davam etdirir. Bu ağıllı bala dərslərini oxumağı, yazmağı vaxtı -vaxtında yerinə yetirir. O, Azərbaycan dili, riyaziyyat, ədəbiyyat, tarix, fiziki tərbiyə, ingilis dili bu fənləri çox sevir. Bu dərsləri yaxşı oxumaqda ona kömək edən Aybəniz müəllimi, Reyhan müəllimi, Günay müəllimini, Nigar və Pəri müəllimini çox sevdiyini vurğuladı. Müəllimlərinin sevimlisi olan Əmrah, gələcəkdə savadlı həkim, təcrübəli cərrah olmaq üçün çalışdığını deyib və əlavə edib ki, o Tibb fakültəsinin tələbəsi olmağa hazırlaşır. Əmrah bilir ki, bu peşə olduqca məsuliyyət tələb edir. Həkim, ali tibb təhsili olan, bu sahədə əldə etdiyi bilik və bacarıqlarını insanların xəstəliklərinin müalicəsinə, insan sağlamlığının qorunması və saxlanılmasına həsr edən insan deməkdir. O, bu yolda daim sevdiklərinin və müəllimlərinin ona dəstək olduğunu bildirib.

Boş zamanlarını isə rəsm çəkərək, sintezatorda ifa edərək əyləncəli hala gətirir. Bununla yanaşı o, riyazi terminləri internet vasitəsilə öyrənməyə cəhd edir. Onun ailəsi də daim ona dəstəkçi və yol göstərəndir və zəhmətkeş ailədir.

Atası Dövlətov Ziyafət 1967-ci il avqustun 31-i anadan olub və tikinti ustasıdır. Anası Dövlətova Xatirə 1966-ci il 8 fevral tarixində anadan olub, evdar xanımdır. Onun iki qardaşı var. Dövlətov Yaqub 1993-cü il 10 oktyabr, Dövlətov Mövla 1990-cı il avqustun 31-i tarixində anadan olub. Hər ikisi tikinti sahəsində çalışır.

Kollektivimiz adından Əmraha gələcəkdə savadlı bir həkim olmağını, daim xalqının sağlamlığının qeydinə qalmasını arzu edirik.



# Cəmil Şəkərli



**”Son 90 gün ərzində kitab oxumamaqdan daha pisi kitab oxumadığına görə narahat olmamaqdır”**
**(Cim Ron)**

Azərbaycan respublikasında həyata keçirilən təhsil islahatları, təhsilin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Bu islahatlar nəticəsində təhsildə, tədris ocaqlarında yeni dərs metodları həyata keçirilir. Bununla yanaşı məktəblər yeni avadanlıqlar ilə təchiz olunub. Dövlət savadlı, istedadlı kadrların hesabına iqtisadi, mədəni və digər sahələrdə irəliləməkdədir. Yalnız savadlı gənclərin hesabına bu sahədə uğur qazanmaq mümkündür. Bu yazıda o gənclərdən biri ilə tanış olacaqsınız. Şəkərli Cəmil haqqında. Qısa da olsa onun tərcüməyi halı ilə tanışlıq onun gələcəyinin parlaq olmasından xəbər verir.

Şəkərli Cəmil Cəlal oğlu 2007-ci il 8 aprel tarixində Biləsuvar rayon Ağayrı kəndində anadan olub. 2012 -ci ildə Cəmil elə Ağayrı kənd tam orta məktəbinə qədəm qoyub. Hal -hazırda o, 6 ci sinifdə təhsilini davam etdirir. Dərslərinə çox vaxt ayırdığını, müəllimlərinin verdiyi tapşırıqları vaxtında yerinə yetirdiyini bildirdi. Ən çox sevdiyi fənlər isə riyaziyyat, Coğrafiya, Azərbaycan dilidir. Yaxşı qiymət almaq, daha çox savad bilik qazanmaq üçün, vaxtının çox hissəsini dərs oxuyaraq keçirir. Bütün müəllimlərini çox sevən Cəmil, onlara qarşı hər zaman hörmətlə yanaşır. Gələcəkdə mühəndis olmaq istəyir. Mühəndislər təbiətdə mövcud olan material və güclərdən istifadə etməklə, onları hər hansı bir məqsəd üçün texniki cəhətdən tətbiq etməyə çalışır. Mühəndislər analitik düşüncəyə, praktikiyönümlü kifayət qədər nəzəri və tətbiqi biliyə malik olmalı və bu biliklərin verilmiş məsələlərin həllində qısa zamanda tətbiq edəbilmə qabiliyyəti ilə fərqlənməlidirlər. Gələcəkdə bu vəzifəyə sahib olmaq üçün inamla addımlayır. Asudə vaxtlarında kitab oxuyur və sevdiyi dostları futbol oynayır. Nümunəvi və əlaçı şagirtdir. Onun hər zaman dəstəkləyən, arxa-dayaq olan ailəsi var.

Bu mehriban ailə 5 nəfərdən ibarətdir. Atası Şəkərov Cəlal Şöhrət oğlu FHN-də işləyir. Anası Nuriyeva Nuranə evdar qadındır. Hər bir valideyn kimi, onlar da daim övladlarına dərslərində yaxından kömək edir, onu gələcəyi ilə bağlı maraqlıdır. Cəmilin, Cəlalə və Şəlalə adlı iki bacısı var. Onlar da məktəblidir.

Biz də jurnalımız adından Cəlal balaya gələcəkdə arzuladığı peşəyə yiyələnməsini və dərslərində bol uğur əldə etməyi arzu edirik. Əldə edəcəyi hər bir uğur ona növbəti böyük uğurları qazanmasına, qapı açmasına səbəb olsun.

# CƏLALƏ ŞƏKƏRLİ





**"Əgər alim bilmirəm kəlməsi barədə qafil olarsa özünü həlak etmiş olar".**
**(İmam Məlik)**

Başqalarından daha uzağı görmək istəyirsənsə onda gərək həyata nəhənglərin çiyinindən baxasan. Əks halda nə həyatı, nə də onun insan üçün ifadə etdiyi mənanı anlamayacaqsan. Həyatı anlamaq və dərk etmək özünüdərkdən başlayır ki, bu da insan övladının elm-təhsil yolundakı çabasından və əxz etdiklərindən asılıdır. Nə qədər bilsən, nə qədər öyrənsən, bir o qədərsən sən.

Hər birimiz hər an yeni bir bilgi əldə etməyə çalışmalı, təhsilimizi, biliyimizi artırmalıyıq. Çünki, bilik və təhsil almadan heç nə əldə edə bilmərik. Bugün ölkəmizdə Azərbaycan təhsilinin inkişaf istiqamətlərinin düzgün müəyyənləşməsi milli təhsilimizin inkişaf aspektləri ilə qanunauyğunluq yaradırsa, yerlərdə təhsilə münasibət işi müəllim-şagird münasibətləri, məktəblətdə təhsilin dinamik inkişafı göstəricisi, ümumiyyətlə, müəllim metodologiyası vacib sayılır.

Bu yazının qəhrəmanı isə Biləsuvar rayonundan olan Cəlalə Şəkərlidir.

Cəlalə Şəkərli Cəlal qızı 2011-ci il 7 yanvar tarixində Biləsuvar rayon Ağayrı kəndində dünyaya göz açıb. Bu ağıllı bala elə həmin rayonun Ağayrı tam orta məktəbində təhsil 2 -ci sinifində təhsil alır. O, ilk dəfə olaraq 2017-cı ildə məktəbə qədəm qoyub. Hələ məktəbə başladığı ilk günlərdən dərslərinə yaxşı hazırlaşan Cəlalə, dərslərindən yaxşı qiymət alaraq müəllimlərinin tərifini qazanıb. Bütün fənləri həvəslə oxuduğunu deyir. Lakin bəzi fənlər var ki, onları xüsusilə çox sevir. Bu fənlər riyaziyyat və ana dilidir. Zəhmətkeş müəllimlərinin də, adını vurğulayan Cəlalə onlar arasında Səbinə və Ülviyyə adlı müəllimlərini daha çox sevdiyini əlavə edib. İlk gündən bəri ona yazmağı, oxumağı öyrədən müəllimləri haqqında xoş sözlər söyləyir. O, dərslərinin, ev tapşırıqlarının yerli yerində olmasına daim diqqət edir. Dərslərindən yaxşı qiymət alan Cəlalə əlaçıdır. Gələcəkdə savadlı bir həkim və yaxud müəllimə olmaq arzusundadır. Hər iki peşəni də təmsil etmək asan iş deyil. Həkim olmaq daim insanların sağlamlığının qeydinə qalmaq, onlara ən çətin anlarda kömək etmək deməkdir. Müəllimə isə ən çətin, lakin ən şərəfli peşə sahələrindən biridir. Müəllimlər gənc savadlı, təhsilli, bilikli nəslin yetişməsində böyük rol oynayır. Hər bir insanın gələcək həyatında müəllimlərin verdiyi bir töhfə var. Cəlalə də gələcəkdə bu iki peşədən birinə sahib olmaq və layiqincə öz vəzifələrini yerinə yetirmək istədiyini deyib. Boş zamanlarında vaxtını kitab oxumağa sərf edir.

Cəlalənin ailəsi 5 nəfərdən ibarətdir. Atası Səkərov Cəlal Şöhrət oğlu FHN-də işləyir. Anası Nuriyeva Nuranə isə evdar qadındır. Onlar öz övladlarını gələcəkdə uğurlu bir gənc kimi görmək istədiklərini bildiriblər. Cəlalənin Cəlal adlı qardaşı və Şəlalə adlı gözəl bir bacısı var.

Biz də öz adımızdan bu məsuliyyətli və çalışqan balaya dərslərində nailiyyətlər arzulayırıq. Ümid edirik hər bir istəyi və aruzusu çin olaraq müəllim və valideynlərinin fəxri, sevinci olar.



# HÜSEYNOVA BAHAR





**Nəzəriyyə elmin ruhu, təcrübə - bədənidir. Nəzəriyyəsiz fikir dənizində və faktın meşəsində asanlıqla azmaq olar.**
**(D. E. Mendeleyev)**

Elmi tərəqqinin geniş vüsət etdiyi bir dövrdə təhsil ən vacib amildir. Çünki insan ancaq öyrənməklə ucalır, öyrətməklə müdrikləşir. Təhsillə insan cəmiyyətdə öz yerin tutub, öz töhfəsin verə bilər. Çünki insan ruhunun sirrləri təbiət elmlərinin metodları ilə açılır. Bir qayda olaraq da elm dedikdə daha çox dəqiq və təbiət elmlər nəzərdə tutulur. Bütün bunlar isə insana təhsillə öyrədilir, tədrislə mənimsədilir. Təhsil həyatına isə ilk addımlar məktəbdən atılır, ardınca ali təhsil ocaqları və həyat adlı mübarizə meydanında püxtələşir, yetkinləşir. Təsadüfi kəşfləri istənilən insan deyil, yalnız hazırlığı olan şəxslər edir. Məktəb yalnız elm ocağı deyil, həm də tərbiyə ocağıdır. Ölkəmizin gələcəyinin parlaq olmağı istedadlı, savadlı, zəkalı gənclərdən asılıdır. Elm öyrənmək yalnız müəyyən savada yiyələnməklə mümkündür. Bilik insanlara hava su kimi vacibdir. Hər bir insan vaxtını düzgün dəyərləndirməli, zamanını faydalı şəkildə keçirməlidir. Ölkəmizdə gənclərimizin istedadlı olmağı təhsilə, elmə sövq edilməsi ilə bağlı bir sıra addımlar atılır. Bu yazıda isə növbəti seçmə və nümunəvi şagirdlərdən olan Hüseynova Bahar haqqında bəhs ediləcək. Onun qısa və maraqlı tərcümeyi halı gələcəyinin ümidverci olmasından xəbər verir.

Hüseynova Bahar Zaur qızı 2007-ci ildə mart ayının 21-i Beyləqan rayonunda anadan olub. 2013-cü ildə məktəbə yollanan Bahar, hazırda 35 nömrəli Ağdam tam orta məktəbin 6a sinifində təhsil alır. Dərslərində bacarıqlı və çalışqan olan Bahar həmişə müəllimlərinin və valideynlərinin tərifini qazanmağı bacarıb. Bütün fənləri sevərək öyrənən Baharın ən sevdiyi fənlər ingilis dili, ədəbiyyat, Azərbaycan dili, coğrafiyadır. Bu dərslərdə ona kömək edən Nərmin müəllim, Röya muəllim, Billurə müəllimi xüsusi ilə qeyd etdi. Böyük Arzu və xəyalları olan bu gözəl qız, imtahanlardan yaxşı nəticə toplayaraq hər kəsi sevindirir. O, gələcəkdə müəllimə olmağı arzulayır və bu peşəni layiqincə yerinə yetirəcəyinə inanır. Təhsil prosesinin əsas siması müəllimdir. Müəllimin peşə qabiliyyətləri sırasında akademik, didaktik, ünsiyyət, konstruktiv, təşkilatçılıq və iradi-emosional qabiliyyətlər mühüm yer tutur. Hər bir müəllim şagirdlərinə qarşı mehriban və səbrli olmalıdır. Bahar da öz peşəkar müəllimləri kimi olmaq istəyir.

Boş zamanlarında şəkil çəkdiyini və dərslərinə hazırlaşdığını deyir. Axı savadlı müəllim olmaq üçün çox çalışmaq lazımdır.

Hüseynovlar ailəsinin 5 üzvü var. Atası Zaur bəy Əvəz oğlu, 1978-ci ildə anadan olub. Anası Əsədova Kəmalə 1977-ci ildə anadan olub və evdar qadındır. Onlar Baharı daim dəstəklədiklərini bildirdilər və onu gələcəkdə savadlı bir gənc kimi görmək istəyirlər. Baharın qardaşı və bacısı var. Hüseynov Anar 2005-ci ildə, Hüseynova Fatimə 2016-cı ildə anadan olub.

Kollektivimiz adından gözəl Bahara həyatında bol uğur və müvəffəqiyyət arzulayırıq. Onun gələcəkdə mütəxəssis bir müəllimə olacağına ümid edirik.

# İSMAYIL RƏHİMOV





**"O adam ki, bilir və biliyi ilə başqalarını heyran etməyi bacarır, o, alimdir, ona etiram edin. O adam ki, bilir və biliyinə güvənmir, o, özündən xəbərsizdir, onu tənqid edin. O adam ki, bilmir və öyrənməyə cəhd edir, o, zəhmətkeşdir, ona kömək edin. O adam ki, bilmir və öyrənmək istəmir, o ağılsızdır, ondan uzaq olun"**

***Nəsirəddin Tusi***

Elm nuru, cahillik zülməti ifadə edir. Bir cəmiyyətin aydınlığa çıxması, nura qərq olması elmli olmasından, əksinə zülmətə qərq olması isə cahilliyi ilə ölçülür. Cahil olmamaq üçün çox oxumaq, çöx öyrənmək lazımdır ki, o xəstəliyə düçar olmayasan. Şərafətli elm heç bir millətin malı deyil, kim ona yiyələnsə onundur deyib böyük mütəfəkkir Cəlaləddin Əfqani.

Bəli, həqiqətən də belədir. Dahi alimin dediklərində böyük bir həqiqət var. İnsan yaşadığı bir ömür boyu oxumalı, elm öyrənməli, gərəkli bir şəxsiyyət olmalıdır.

Hələ ibtidai sinifə yenicə qədəm qoyan İsmayıl da oxumağı özünə vacib bir hal hesab edir.

Rəhimov İsmayıl Mahir oğlu 27 oktyabr 2012-ci ildə Gəncə şəhərində anadan olub. 2018-ci ildə 71 saylı tam orta məktəbin 1-ci sinfinə qəbul olub. Hazırda 71 saylı tam orta məktəbin 1-ci sinfində təhsil alır.

İsmayıl oxumağa, yazmağa 4 yaşından başlayıb. Artıq 5 yaşında o, sərbəst oxuyub yazmağı bacarırdı. Məktəbəqədər hazırlığa Samux rayonunda gedən İsmayıla ilk dəfə Kəmalə Kazımova dərs deyib. Kəmalə müəllimənin sayəsində bir qədər də yaxşı oxuma, yazma bacarığına malik ola bilən İsmayıl birinci sinfə Bakıda, yəni 71 saylı tam orta məktəbə gedib. Burada sinif rəhbəri Sitarə müəllimdir. İsmayıl Kəmalə müəllimi unutmasa da, qısa bir zamanda Sitarə müəllimə də mehrini salıb. Müəlliminin öyrətdiklərini öyrənib mənimsəməyə çalışır. Bu mehriban, gülərüz bala davranışı və yaxşı oxumağa səy göstərdiyi üçün müəlliminə xoş təəssürat bağışlayır və müəlliminin sevimli şagirdlərindən birinə çevrilib. İsmayıl hələ 1-ci sinif şagirdi olmasına baxmayaraq, daha kamil düşüncəyə malikdir. Dərs zamanı çox hazırcavab olur. Sinifdə ümumi verilən sualların əksəriyyətinə o cavab verir.

Gələcəkdə həkim, ya da polis olmaq istəyir. Elə buna görə də dərslərinə daha ciddi yanaşır ki, gələcəkdə seçəciyi peşənin əsl peşəkarı olsun. Ən böyük arzusu isə kosmosa getməkdir.

Lazımsız əşyalardan müxtəlif cürə əşyalar düzəltməyi bacaran İsmayıl ən çox təyyarə, raket və s. robotlar hazırlayır. Hələ balaca qəlbində böyük dünyanı əl işləri ilə kəşf etməyə çalışır.

İsmayıl təbiəti və canlıları da çox sevir. Küçədə hansısa bir canlını yaralı və yaxud sahibsiz görəndə onu evə gətirir, o sağalana kimi ona qulluq edir, sonra isə yenidən təbiətə buraxır.

Məntiqli cizgi və sənədli filmlərə baxmağı xoşlayır. Digər dilləri öyrənməyə marağı var. Çox vaxt öyrəndiklərini təkrarlayır, yeni kitablar mütaliə edir. Asudə zamanlarında rəsm də çəkir. Demək olar ki, bu balaca oğlan boş oturmağı, səmərəsiz vaxt keçirməyi sevmir.

Ailədə 4 nəfərdən ibarədirlər. Atası Rəhimov Mahir Bəhlul oğlu, avtomobil ustasıdır. Anası Əliyeva Nurlana Yaşar qızı, evdar xanımdır. Yaşca kiçik qardaşı Bəhlul isə 284 saylı bağçaya gedir.

Jurnalımızın kollektivi adından İsmayıla can sağlığı, dərslərində və gələcək həyatında uğurlar diləyirik! Qoy öyrəndikləri və öyrənəcəkləri ona gələcək həyatında, karyerasında yardımçı olsun.



# İLAHƏ QULUYEVA






**"Kitablar bizi ötən əsrlərin mənəvi həyatının varisi edir"**
**(N.B.Vəzirov)**

Təhsilin inkişaf etdirilməsinə, keyfiyyətcə yeni tərəqqi meyilləri və motivlərinin əldə olunmasına təkan verən mühüm amillərdən biri də bu sahəyə yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsidir. Məhz bu proses Azərbaycanın təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya olunmasına gətirib çıxaran başlıca meyilləri özündə ehtiva edir. Bu onu deməyə əsas verir ki, Azərbaycanın təhsil sisteminin mühüm vəzifə, məqsəd, meyil, motiv və inkişaf prioritetləri dünyada cərəyan edən proseslərə inteqrasiya olunmaqla, beynəlxalq standartların mənimsənilməsi və təhsil təcrübəsinə tətbiq olunmasıyla müəyyənləşdirilir. Jurnalımızın növbəti yazısının qəhrəmanı İlahə Quluyevadır.

Müsahibimiz İlahə Quluyeva Zaur qızı 2007-ci il 20 aprel tarixində Azərbaycanın səfalı məkanlarından olan Tovuz rayonunda anadan olub. O, indi Ağdam 35 nömrəli tam orta məktəbin 5 c sinif şagirdlərindən biridir. 2014-cu ildə ilk dəfə məktəbə yollanan İlahə müəllimlərini çox sevdiyini və oxumağa qarşı həvəsli olduğunu deyir. Çalışqan və bacarıqlı olan bu gözəl qız bir çox fənləri çox sevir. Ən çox sevdiyi fənlər ingilis dili, Azərbaycan dili və həyat bilgisidir. O, qayğıkeş və səbirli olan müəllimlərindən də danışdı. Nərmin müəllimi, Röya müəllimi və Yeganə müəlliminin adını



xüsusilə qeyd edib ki, daha çox sevərək dərsini mənimsədiyi müəllimlərdir. Gələcəkdə də məhz onlar kimi bir mütəxəssis müəllimə olmaq, şagirdlərə elmin dərinliklərini öyrətmək, onlara bilik və savad qazandırmaq arzusundadır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz sevimli müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq. Bu şərəfli vəzifəyə nail olmaq üçün o boş zamanlarında müxtəlif kitablar oxuyur ki, dünyagörüşü və bilgisi çox olsun.

Quluyevlər ailəsi 4 nəfərdən ibarətdir. Atası Quluyev Zaur elektrikdir. Zəhmətlə ailəsini dolandırır, övladlarına təhsil verir. Anası Quluyeva Sevinc evdar qadındır. Onlar hər zaman övladlarına dəstək olduqlarını, gələcəkdə onu savadlı bir gənc kimi görmək istədiklərini bildiriblər. İlahənin bir qardaşı var.

Kollektivimiz adından İlahəyə məktəb həyatında uğur, gələcəkdə isə peşəkar təhsilli bir pedaqoq olmasını diləyirik. Qoy öyrəndiklərini öyrətməklə həm savab, həm də faydalı iş görsün.



# İLKİN ABIYEV







**"Fəzilət, elm və mərifətdən məhrum olanlar üçün ölüm deməkdir"**

**(M. T. Sidqi)**

Ölkəmizin elmini gənclər inkişaf etdirəcək. Bu isə savadlı və təhsilli gənclərin öhdəliyinə düşən məsuliyyətli bir vəzifədir. Zaman keçdikcə bu gənclərin arasından həkim, polis, müəllim, idmançı, sənətkar kimi müxtəlif peşə adamı, savadlı gənclər yetişəcək. Əvvəlki görkəmli alimlərimiz kimi onlarda öz xalqına töhfəsini verəcəkdir.

Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını və bir çox bizlərə sirr olan məsələləri aydınlaşdırır. Hər birimiz hər an yeni bir bilgi əldə etməyə çalışmalı, təhsilimizi, biliyimizi artırmalıyıq. Çünki, bilik və təhsil almadan heç nə əldə edə bilmərik.

İlkin Abıyev Həmid oğlu 2001-cu ildə 1 yanvar tarixində Biləsuvar rayonun Ağayrı kəndində anadan olub. İlkin 2008-ci ildə elə bu rayonda Ağayrı kənd tam orta məktəbinə daxil olub. Hal-hazırda o, 11-ci sinifdə təhsil alır. Riyaziyyat və Azərbaycan dili fənlərinə isə daha həvəskardır. O, müəllimlərinin şagirdlərə qarşı mehriban olduğunu vurğuladı. Ən çox sevdiyi müəllimləri Nadirli Dünyamin müəllim və Nəbili Bəhruz müəllimdir. O gələcəkdə hərbiçi olmağa hazırlaşır. Əsas məqsədi isə həmvətənlərimizin qisasını, mənfur düşmənlərimizdən almaqdır. İlkin deyir ki, o xalqını, vətənini, millətini qorumaq üçün daim əlindən gələni etməyə hazırdır. Eyni zamanda o, idmanla aktiv məşğul olur. Korete üzrə yarışlarda yer tutan və qızıl medala layiq görülən İlkin, daha çox çalışıb ölkəmizin bayrağını yüksəltmək istədiyini deyib. Boş zamanını da elə məhz idman edərək keçirir. Qara kəməri var. Onun bu uğurları ilə sevinən ailəsi İlkinlə qürur duyur və ona uğurlar arzulayır.

Həmidovlar ailəsi 7 nəfərdən ibarətdir. Atası Abıyev Həmid 1968-ci il 4 dekabr tarixində Biləsuvar rayon Ağayrı kəndində anadan olub və hal-hazırda həmin rayonda pambıq zavodunda işləyir. Anası Kərimova Xuraman 1965-ci il 4 may Cəlilabad rayon Əliqasımlı kəndində anadan olub. Onun iki bacısı və 2 qardaşı var. Bacıları Abıyeva Ülviyyə 1991-ci ildə, digər bacısı Abıyeva Nərminə 1998-ci ildə anadan olub. Qardaşları Abıyev Adəm 1993-cu il, digər qardaşı isə, 1995-ci ildə anadan olub.

Biz də redaksiyamız adından İlkinə gələcək həyatında nailiyyətlər və arzularına tez bir zamanda çatmağını diləyirik. Qoy öz zəhmət və əziyyəti ilə həmişə ailəsinin, doğmalarının sevinci, qüruru olsun.

# ŞAHVERDİYEV MURAD





**"Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər"**

***(Frensis Bekon)***

Bu gün ölkəmizdə Azərbaycan təhsilinin inkişaf istiqamətlərinin düzgün müəyyənləşməsi milli təhsilimizin inkişaf aspektləri ilə qanunauyğunluq yaradırsa, yerlərdə təhsilə münasibət işi, müəllim-şagird münasibəti, məktəblərdə təhsilin dinamik inkişaf göstərici, ümumiyyətlə, müəllim metodologiyası vacib və müstəsna hal kimi təsbit olunur. Elm insanın yolunu aydınladan, onun həyatına gələcəyinə işıq tutan bir vasitədir. Açılan hər məktəb bir həbsxananın bağlanması deməkdir deyib böyük fransız mütəfəkkiri Vüqtor Hüqo. Həmin təhsil ocaqlarının illərlə yetişdirdiyi nəsillər isə məxus olduğu ölkənin, dövlətin əsas sərvətidir desək yanılmarıq. Çünki əsas diqqəti, qayğısı insan kapitalına yönələn ölkələri tarix boyu "məğlub" etmək çətin olub. Əksinə zamanla həmin insan kapitalının qurub-yaratması ilə ucalaraq dünyada güclü iqtisadiyyat və siyasətə sahiblənib. Odur ki, elm və təhsillə başlanan uğurlu gələcəyə elə özülündən sağlam dəstək vermək və özündə güclü inam formalaşdırmaq lazımdır. Jurnalımızın növbəti ağılı və savadlı qəhrəmanlarından biri də Murad Şahverdiyevdir.

Şahverdiyev Murad İlkin oğlu 2009 -cu il 18 sentyabr Biləsuvar rayonu Ağayri kəndində anadan olub. 2017-ci ildə Murad Biləsuvar Vüqar Rüstəmov Ağayrı tam orta məktəbinə daxil olub. Hal-hazırda Murad elə həmin məktəbin 3a sinifində təhsilini davam etdirir. Fəallığı ilə seçilən bu ağıllı bala riyaziyyat fənnini çox sevdiyini deyir. Ən sevdiyi müəllimələrinə gəldikdə isə o, Əlisa, Zöhrə və Dünyamin adlı müəllimlərini çox sevdiyini bildirib. Məktəbə başladığı gündən etibarən o, dərslərinə ciddi hazırlaşır. Bunun nəticəsində Murad, idman və bilik yarışmalarında uğur qazanıb. Məktəb üzrə keçirilən bilik yarışmasında qalib olub. İdmanın karate növü üzrə keçirilən yarışlarda iştirak edərək iki dəfə birinci yerə, bir dəfə isə ikinci yerə çıxıb. Bu yarışlardan ona bir sıra fəxri fərman, diplom və kupok yadigar qalıb. O, bu uğurlarını davam etdirmək istəyir. Murad gələcəkdə həkim yaxud müəllim olmaq arzusundadır. Bu iki müqəddəs və olduqca məsuliyyətli peşələrin arasında seçim çətinliyi arasında qalan Murad hər iki sənətin adamı olmaq üçün yüksək elm-təhsil almalı olcağını dərk edir.

Hər iki sənət də olduqca çətin və məsuliyyətli işdir, insan həyatını həll edən və müəyyən edən peşələrdir. Qədim və humanist peşə olan həkimlik insanların səhhətinin qorunmasına, xəstəliklərin qarşısının alınmasına yönəlib. İnsanların ayrılmaz dostu olan bu peşə sahibləri daim bəşərin keşiyində dayanmışlar.

Hipokrat və İbn-Sinanın fəaliyyətləri bu sahənin inkişafına ciddi təkan vermişdir. Onların etdiyi dərin tibbi təcrübələr və nail olduqları kəşflər tibb elminin inkişafında əvəzolunmaz töhfələr vermişdir. Müasir zamanda tibb elmi daha sürətlə inkişaf edir. Buna görə də Murad xalqına xidmət etmək üçün daha çox çalışır. O boş zamanlarında rəsm çəkir və atasına kömək edir. Rəsm çəkməklə daxili dünyasının xəyallarını, hiss elədiklərini fırçanın, qələmin al-əlvan boyaları ilə cızır və daxilən rahatlıq tapır. Onun uğur və nailiyyətlərinə gəldikdə isə oxuyub bitirdiyi sinifləri əla qiymətlərlə başa vurmasını qeyd edib. Yəni siniflərində əlaçı və nümunəvi şagirdlərdəndir.

Atası Şahverdiyev İlkin Canibey oğlu, təsərrüfatla məşğuldur. Anası Ağayeva Aygün Nəsimi qızı evdar qadındır. Onlar öz övladlarını gələcəkdə uğurlu bir gənc kimi görmək istədiklərini söyləyir. Qardaşı Şahverdiyev Sərdar 2-ci sinifdə oxuyur. O, ata və anasının qayğıkeş, zəhmətkeş olduğunu bildirib və onları çox istədiyini əlavə edib. Murad üçün dünyada onun valideynlərindən əzizi, doğması yoxdur ki, gələcək uğurları ilə ən çox da onları sevindirmək istəyir.

Biz də öz növbəmizdə Murada gələcəkdə savadlı həkim və yaxud peşakar müəllim olmağını, ən əsası işini məsuliyyətli bir şəkildə yerinə yetirməsini arzu edirik. Ömür yolu parlaq, əqidəsi sağlam və bütün arzuları çin olsun. Müəllim və valdideynləri daim onunla fəxr etsin.



# AYDAN RƏCİYEVA







**"Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun, elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin"**

**(Əbülhəsən Bəhmənyar)**

Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. İndiyə qədər yaranmış təməlin üzərində Azərbaycan təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcəkdir.

Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq.

Müsahibimiz Aydan Rəciyeva 2008-ci ildə sentyabrın 6-ı Sabirabad rayonunda dünyaya göz açıb. Hal-hazırda bu gözəl bala Ağdam rayonu 35 saylı tam orta məktəbdə 5 c sinifində təhsilini uğurla davam etdirir. 2014-cü ildə ilk dəfə məktəbə qədəm qoyan Aydan, riyaziyyat və Azərbaycan dili fənlərini çox sevdiyini bildirib. Aydan daim ona kömək olan, dərslərində ona dəstək olan müəllimələrinin də adını vurğuladı. Reyhan müəllim və Röya müəllimi çox sevdiyini, tapşırıqlarına əməl etdiyini deyib. Bu zəhmətkeş müəllimlərindən ilham alan Aydan, böyüdüyü zaman elə məhz bu peşəni seçmək qərarına gəlib. Müəllim yüksək əqidə, məslək sahibi, olmalıdır. O, xalqın, Vətənin problemləri ilə yaşamalı, gəncliyi də bu ruhda yetişdirməlidir. Hətta xalq şairi B. Vahabzadə vaxtilə orta məktəbdə ədəbiyyat müəllimi olan Hüseyn Cavid və onun ağır həyatı haqqında ürək yanğısı ilə, hətta ağlayaraq dərs keçməsini xatırlayır ki, bir müəllim bu qədər fədakar olmalıdır. Müəllim yüksək mədəniyyətə və mənəviyyata malik olmalıdır. Aydan da arzuladığı bu peşəyə sahib olmaq üçün daim durmadan çalışmağı, öyrənməyi qarşısına əsas məqsəd olaraq qoyub. Boş zamanlarında kitab oxuyan, dərslərini təkrar edən Aysun vaxtını bu şəkildə daha dəyərli və faydalı hala gətirir.

Rəciyevlər ailəsi 5 nəfərdən ibarətdir. Atası Rəciyev Həsən utsadır. Anası Rəciyeva Arzu isə evdar xanımdır. Onlar qızlarını gələcəkdə savadlı bir müəllim, ziyalı bir şəxs kimi görmək istəyir. Aydanın bir qardaşı və gözəl bir bacısı var. Aydan ailəsini, valideynlərini çox sevdiyini deyir.

Kollektimiz adından Aydana dərslərində bol uğur və gələcəkdə bilikli bir müəllim olmasını arzu edirik. Qoy o bilikləri ilə cəmiyyətimizə, elimizə, ölkəmizə faydalı bir şəxs, ziyalı bir xanım olsun.

# Cəbrayılov Qurban














**“İnsanlarla mülayim davranmaq dinin yarısı, gözəl sual vermək elmin yarısı və yaxşı idarəetmə yaşayışın yarısıdır”**

**(Hz Ömər)**

Müasir dünyada hər bir ölkənin inkişaf gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Çünki sağlam cəmiyyət qurmaq üçün birincisi təhsil, ikincisi o təhsilin bəhrəsini görəcək və davamını apara biləcək sağlam gənclik lazımdır. Sağlamlığın ən vacib amili isə təbii ki, təhsillə yanaşı idman, musiqidir. Musiqi təkcə mənəvi qida və dincəlmək üçün deyil, həm də ölkəmizi dünya ölkələri arasında təmsil edəcək siyasi bir güc ruporudur, bir ölkənin sahib olduğu mədəni sərvətidir. Ölkəmiz milli musiqisi, muğamı ilə dünyanın müxtəlif ölkələri arasında tanınır və yalnız biliyi ilə yox, həm də mədəni sərvəti ilə də seçilir. Amma təhsillə musiqini eyniləşdirmək düzgün deyil, çünki təhsil həyatın vacibi şərtidir. Təhsilsiz güc sahibləri beyinlə deyil, qol gücü ilə həyatda qalarlar, yaşam səbəbini onda görərlər. Eləcə də musiqidə də təhsilsiz səs sahibi peşəkar musiqiçilikdən çox uzaqdır. Bu faktı isə indidən özü üçün dəyərləndirib elmi təhsili ilə musiqi təhsilini birgə öyrənməyə çalışan Qurban Cəbrayılov da jurnalımızın qəhrəmanlarından biri kimi seçilməklə gələcəyini də bu istiqamətdə paralel davam edərək quracağı qənaətindədir. Ailəsinin, müəllimlərinin sevimlisi olan Qurban və onun anası haqqında qısa da olsa bu yazıda bəhs etmişik.

Cəbrayılov Qurban Füzuli oğlu 11 yanvar 2006-cı ildə Xanlar rayonunun Murovdağ qəsəbəsində anadan olub. Evin iki övladından kiçiyi olan Qurban 2013-cü ilin tədris ilindən etibarən Kəlbəcər rayon 107 saylı tam orta məktəbin birinci sinfinə gedərək təhsil həyatına başlayıb. Hazırda həmin məktəbin 6-cı sinif şagirdidir. Bu illər ərzində öz bilik və mədəniyyəti ilə müəllimlərinin sevgi və qayğısını qazanan Qurbanın öyərndiyi fənlər arasında ən sevdikləri fizika, riyaziyyat və doğma Azərbaycan dilidir. Bütün müəllimlərini sevib hörmətlə yad etsə də ancaq İsmayılova Tamella və Nicat Əliyev adlı müəllimlərinə sevgisi bir ayrıcürdür. Qurban dərsləri ilə yanaşı, həm də incəsənətlə, doğrusu onun qolu hesab edilən musiqi ilə də yaxından məşğul olur. O, Göygöl rayonu Aşıq Şəmşir adına musiqi məktəbinin 4-cü sinif şagirdirdir. 5 illik olan bu musiqi məktəbinin muğam fakultəsini gələn bitirməklə həm də musiqi təhsilli bir məktəbli kimi yetişəcək. Onun idmana xüsusi marağı olsa da ancaq heç bir məşğələyə getmədən həvəskar kimi özü boş vaxtlarında musiqi ilə birgə məşğul olur. Onun bu yaşında əldə etdiyi ən böyük uğuru mütəmadi olaraq rayon konsertlərində, ictimai tədbirlərdə iştirak etməklə öz bacarıq və istedadını nümayiş etdirməsidir ki, əvəzində bu da müəyyən dəyərli mükafatlarla qiymətləndirilib. Həmçinin, Qurban əsgər günlərində verilən konsert proqramında iştirak edərək vətən keşiyində dayanan oğullara musiqiçi kimi öz töhfə və faydasını verib. Qurbanın ən böyük istəyi musiqi biliyini artırıb, təkmilləşdirib gələcəkdə musiqi müəllimi olmaqdır. Elə ailəsinin, valdieynlərinin də ən böyük istəyi onun musiqiçi olması ilə bağlıdır. 4 nəfərdən ibarət olan ailəsində atası Cəbrayılov Füzuli Əvəz oğlu orta təhsilli, zəhmətkeş bir insandır. Qardaşı Cəbrayılov Emil Füzuli oğlu 10-cu sinif şagirdidir. O kiçik qardaşı ilə fəxr edərək onunla qürur duyur. Anası Ələkbərova Leyla Novruz qızı isə Qurbanın oxuduğu məktəbin ibtidai sinif müəllimidir. O, 1974-cü ilin yanvarın 26-da Kəlbəcərin Lev kəndində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra ali təhsil alaraq müəllim kimi çalışmağa başlayıb. Hazırda Kəlbəcər rayon 107 saylı tam orta məktəbin ibtidai sinif müəllimdir. İndiyə qədər çoxlu yetişdirdiyi şagirdləri olub ki, onların hər biri onun sənətinin bəhrəsidir. Bir müəllim, diqqətcil ana kimi çalışır və arzulayır ki, övladı Qurban təhsilinə və musiqi biliyinə, savadına dərindən bələd olsun və gələcək həyatını musiqi sahəsində qursun. Çünki təhsilin, xüsusilə yüksək, keyfiyyətli təhsilin vacibliyini bir müəllim kimi yaxşı bilir, dərk edir. O, oğluna həyatın ən gözəl istək və xoş günlərini arzulamaqla onun gələcəyini parlaq görür və ümid edir ki, onunla bağlı bütün arzu və istəkləri reallaşsın.

Biz də jurnal heyyəti adından ananın adından, öz adımızdan Qurbana uğurlar arzulayır və elm, təhsil yolunda böyük nailiyyətlər arzulayırıq. Ümid edirik ki, o gələcəyin peşəkar ifaçısı, musiqi bilicisi olmaqla həm milli musiqimizin yaşadılmasında, həm də tanıdılmasında müstəsna xidməti və töhfələri olacaq. Ömür yolu aydın, uğurları parlaq olsun, səsi isə yüksəklərdən eşidilsin.













ÇAĞDAŞ

# TƏHSİL

Xüsusi buraxılış MART 2019-cu il (17)








2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazılar ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:

Telefon nömrələri:

(070) 077 988 82 83 077 632 22 86 WhatsApp 012 408 91 92

Mail: tehsil_news@mail. ru

Facebook: Tehsil Yenilikleri İnstagram: tehsil_yenilikleri Youtube: Təhsil Yenilikləri







Təsisçi:
Vüsal Kəlbəcərli

Baş redaktor:
Ülvi Musayev

Redaksiya heyyəti:
Cavid Qurbanov
Qənbər Qurbanov

"Çağdaş Təhsil"
qəzetinin
Xüsusi buraxılış

Ünvan: Azərbaycan
Respublikası
Bakı şəhəri, Mətbuat
prospekti
529-cu məhəllə
"Azərbaycan nəşriyyatı"
2-ci mərtəbə

Jurnal Redaksiyanın
kompüter mərkəzində
yığılıb, səhifələnib,
çap olunmuşdur.

Tiraj - 500

Tel: 077-632-22-92
050-770-21-97
055-334-99-86
012-408-91-92
077-632-22-86
050-877-71-86